# Xalq qəzeti

Xalqın qəzeti!

№ 167 (30571) 8 avqust 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Beynəlxalq Maliyyə Korporasiyası Azərbaycana “yaşıl” dəstəyini artırır



**Bu gün respublikamız bərpaolunan enerji layihələrinin reallaşdırılmasını diqqət mərkəzində saxlayır və bununla bağlı dünyanın nüfuzlu maliyyə qurumları ilə əməkdaşlığını genişləndirir. Azərbaycanın Dünya Bankının (DB) üzvü olan Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ilə münasibətlərində bu məsələ prioritet istiqamət kimi diqqət çəkir.**

IFC tərəfindən təqdim edilən “Azərbaycanda dənizdə külək enerjisindən istifadənin inkişafı üzrə Yol Xəritəsi”ndə göstərildiyi kimi, 2040-cı ilədək Azərbaycan dəniz küləyindən enerji hasilatı üçün 7 QVt qoyuluş gücünə nail ola bilər. Bununla da ölkənin dekarbonlaşma və dayanıqlı iqtisadi artım kimi paralel prioritetlərinin icrası sürətlənər.

Azərbaycanda ilk dəfə hazırlanmış dəniz külək enerjisi üzrə adıçəkilən Yol Xəritəsi iki artım ssenarisini (yüksək və kiçik artım) nəzərdə tutur. Yol Xəritəsinin məqsədi dəniz külək energetikasına dünyada artan maraq şəraitində bu yeni sənaye ilə bağlı normativlər, hüquqi çərçivə və infrastrukturla bağlı qərarların verilməsinə yardım etməkdir.

*(ardı 8-ci səhifədə)*

## Ölkəmizdə özəl bölmə böyüyür, müasirləşir

### *161 sahibkar “startap” şəhadətnaməsi ilə 3 il müddətinə mənfəət vergisindən azad edilib*

**Son illər ölkəmizdə müasir sənaye müəssisələrinin yaradılması və bu sahədə idxaldan asılılığın azaldılması məqsədilə bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində güzəştli maliyyələşmə, kredit-zəmanət və faizlərin subsidiyalaşdırılması mexanizmlərinə çıxış imkanları genişlənib, investisiya təşviqi mexanizmi əhəmiyyətli dərəcədə təkmilləşib, sənaye zonalarının inkişafı təşviq olunub, dövlətin yeni dəstək alətləri tətbiq edilib.**

**(ardı 7-ci səhifədə)**



## Ermənistan Türkiyə ilə Azərbaycanın arasını vurmaq istəyir



**Səhifə ⇨ 3**



## ABŞ Zəngəzuda nə axtarır?

### Deyəsən, Ağ ev bölgədə Kremllə yeni münaqişə ocağı yaradır

**Əgər yayılan xəbərlər təsdiqini taparsa, onda Vaşinqtonun İrəvanla hərbi-texniki əməkdaşlığın yeni fazasına keçdiyi barədə danışmaq olar. Yoxsa, Pentaqonun Ermənistanın İranla sərhədinə – Zəngəzur dəhlizi yaxınlığına özünün hərbi kontingentini yeritməsinə nə ehtiyac vardı? ABŞ onsuz da Rusiyanın bu transmilli nəqliyyat qovşağına nəzarəti ələ keçirməsinə yol verməyəcəyi ilə bağlı mövqeyini, üstüörtülü şəkildə olsa da, bildirmişdi.**

Deməli, “Caliber.az”ın etibarlı mənbələrdən əldə etdiyi məlumata əsasən, Birləşmiş Ştatların Silahlı Qüvvələrinə məxsus iki “Boeing C-17” hərbi yük təyyarəsi şəxsi heyət və xüsusi avadanlıqla birlikdə Zvartnots hava limanına eniş edib. Ardınca sayt onu da yazıb ki, təyyarələrdən birində İran ərazisindən havaya qalxan raketlərin, eləcə də təyyarələrin uçuş istiqamətini izləyən xüsusi cihazlar olub. Ehtimal edilir ki, məqsəd İran ərazisindən İsrailə mümkün hava hücumu riskinin qarşısını almaqdır. Xəbərdə o da qeyd olunur ki, okeanın o tayından gətirilən qurğular Ermənistanın məhz İranla sərhədində yerləşdiriləcək. Bu, məsələnin bir tərəfidir. Digər tərəfi isə Ermənistanın İranla sərhədini Rusiya sərhədçilərinin qoruması ilə bağlıdır. Yəni, ərazidə mövcud sərhəd qoruma xidməti olduğu halda, rəsmi İrəvan belə bir avantürist addımı atmağa qadirdirmi?

*(ardı 3-cü səhifədə)*

## Revanşistlər yenə qarşıdurma yaradırlar

**Ermənistanın populyar qəzetlərindən olan “Hraparak” təxminən 2 həftə əvvəl iki ölkə sərhədində, Qazax rayonunun Xeyrımlı kəndi ilə həmsərhəd Kirants kəndində, guya, azərbaycanlı və erməni sərhədçilər arasında iki insidentin baş verdiyi barədə material dərc etmişdi. Qəzetin yazdığına görə, guya, Azərbaycan sərhədçiləri Kirantsda çəkilən yeni yolun bir hissəsinin ölkəmizin ərazisindən keçdiyini iddia ediblər.**



Hayastan milli təhlükəsizlik xidməti “Azadlıq” radiosunun erməni xidməti – “Azatutyun”un sorğusuna cavab olaraq bildirmişdi ki, Kirants kəndində yeni yolun marşrutu ilə bağlı Ermənistan və Azərbaycan sərhədçiləri arasında heç bir insident baş verməyib. Radionun əməkdaşı milli təhlükəsizlik xidmətindən çəkilən yeni yolla bağlı Ermənistan və Azərbaycan sərhədçiləri arasında hansısa müzakirənin və ya insidentin baş verib-vermədiyini və yeni yolun sərhədin demarkasiyasından sonra Ermənistan ərazisindən keçib-keçmədiyini soruşub. Xidmət Azərbaycan tərəfi ilə insidentlə bağlı iddiaları təkzib edərək, eyni zamanda, əmin edib ki, çəkilməkdə olan yol bütünlüklə Ermənistan ərazisindən keçir.

*(ardı 4-cü səhifədə)*

## Erməni irqçilik düşüncəsi gerizəkalıqdan qaynaqlanır



**Səhifə ⇨ 6**

## Bəşəriyyət ekoloji bumeranqın hədəfində



**Səhifə ⇨ 10**

## “Dumanlı Albion”da hava bir az “tutqun”dur



**Səhifə ⇨ 11**

# İsmayıl Berdiyevin doğmalarına və yaxınlarına

Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Əliyeviç Berdiyevin vəfatı ilə bağlı kədərli xəbəri dərin hüznlə qarşıladım.

Hacı İsmayıl Azərbaycanın böyük dostu idi. O, Azərbaycan ilə Rusiya arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafına sanballı töhfə verib. Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsində çoxillik məhsuldar fəaliyyətinə görə o, Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif edilib.

Hacı İsmayılın dini dözümlülük və tolerantlıq, dinlərarası və sivilizasiyalararası dialoqun dərinləşdirilməsinin inkişafı istiqamətində geniş dini fəaliyyəti ona təkcə öz ölkəsində deyil, onun hüdudlarından kənarda da dərin hörmət qazandırıb.

Hacı İsmayıl ilə görüşləri və söhbətləri, xüsusən bu ilin mayında Bakıdakı sonuncu görüşü həmişə böyük səmimiyyətlə xatırlayıram. İsmayıl Əliyeviçin nurlu xatirəsi qəlblərimizdə daim yaşayacaq.

Sizə səmimi-qəlbdən başsağlığı verir və bu ağır itki ilə əlaqədar ağrı-acınızı bölüşür, sizinlə birlikdə kədərlənirəm.

**Allah rəhmət eləsin!**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 7 avqust 2024-cü il**

# R.B.Hüseynovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə Rafael Baba oğlu Hüseynov "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 7 avqust 2024-cü il**

# Məhkəmə Ekspertizası Şurasının yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Məhkəmə ekspertizası sahəsində (bundan sonra – müvafiq sahə) dövlət idarəetməsinin və tənzimləməsinin təkmilləşdirilməsi, məhkəmə ekspertizası fəaliyyətinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, habelə müvafiq sahədə vahid standartların hazırlanması və onların tətbiqinin təşviqi, kadr potensialının gücləndirilməsi məqsədilə aşağıdakı tərkibdə məşvərətçi əsaslarla fəaliyyət göstərən Məhkəmə Ekspertizası Şurası (bundan sonra – Şura) yaradılsın:

**Şuranın sədri**

Azərbaycan Respublikasının ədliyyə naziri

**Şuranın üzvləri:**

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini

Azərbaycan Respublikası Baş prokurorunun müavini

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyəti sədrinin müavini.

**2** Şura:

2.1. aşağıdakı məsələlərlə bağlı təkliflərini hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

2.1.1. müvafiq sahənin inkişaf konsepsiyasının layihəsinə dair təkliflərini;

2.1.2. müvafiq sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin elektronlaşdırılmasının, ümumi məlumat və bilik bazasının formalaşdırılması və həmin bazadan istifadənin əlçatanlığının təmin edilməsi və bu kimi digər məqsədlərə nail olunması üçün vahid informasiya sisteminin yaradılmasına dair təkliflərini;

2.1.3. müvafiq sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyət dairəsinin genişləndirilməsi imkanlarının təhlili əsasında təkliflərini;

2.1.4. ayrı-ayrı ekspertiza növləri üzrə vahid standartların müəyyən olunmasına dair təkliflərini;

2.1.5. müvafiq sahədə xüsusi təhsil proqramlarının (ixtisasların) açılması, habelə ali təhsil müəssisələrinin fəaliyyətinin məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqələndirilməsi imkanlarının təhlili əsasında təkliflərini;

2.1.6. özəl ekspertiza fəaliyyətinin təşviqi istiqamətində təkliflərini;

2.1.7. normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflərini;

2.2. fəaliyyətinə dair iş qaydasını bir ay müddətində təsdiq etsin;

2.3. müstəqil ekspertləri və mütəxəssisləri, habelə elmi müəssisələri (təşkilatları) öz fəaliyyətinə cəlb etsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Şuranın təklifləri əsasında müvafiq sahənin inkişafı və müvafiq sahədə fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin müasir standartlara uyğun həyata keçirilməsinin təmini üçün zəruri maliyyə vəsaitinin müvafiq illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulması üçün tədbirlər görsün;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 7 avqust 2024-cü il**

# T.H.İbrahimovun Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Tofiq Hüseyn oğlu İbrahimov Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 7 avqust 2024-cü il**

# Hikmət Hacıyevin Türkiyə səfiri ilə görüşü



**Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçını qəbul edib.**

Bu barədə Türkiyə səfiri "X" platformasında paylaşım edib. O, H.Hacıyevlə məhsuldar görüşün keçirildiyini qeyd edib.

"Türkiyə-Azərbaycan qardaşlığı sarsılmaz və əbədidir", - paylaşımda bildirilib.

# AÇG yatağında seysmik tədqiqatın I mərhələsi başa çatıb

**bp şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz "Azəri-Çıraq-Dərinsulu Günəşli" (AÇG) yatağında yeni dördölçülü (4D) yüksək dəqiqlikli dəniz dibi qovşaqlarla seysmik tədqiqat proqramının birinci mərhələsinin başa çatması münasibətilə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova məktub ünvanlayıb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, məktubda icra müddəti 5 il nəzərdə tutulan layihənin bp-nin dünyada indiyədək həyata keçirdiyi ən böyük seysmik məlumat toplama proqramı olduğu vurğulanıb.

Bildirilib ki, seysmik tədqiqat proqramının məqsədi AÇG yatağının arxitektura və maye kontaktının dinamikası barədə ətraflı məlumat əldə etməkdir. Tədqiqatın aparılması AÇG tərəfdaşlarına gələcəkdə yatağın işlənilməsini səmərəli şəkildə optimallaşdırmağa kömək edəcək.

Q.Counz məlumat verib ki, 2024-cü ilin yanvar ayında başlanmış birinci seysmik tədqiqat qrafiki qabaqlamaqla və nəzərdə tutulandan daha az büdcə sərf etməklə tamamlanıb.

Məktubda AÇG yatağının gələcəyinin təmin edilməsində mühüm addım olan bu tədqiqatı dəstəklədiyinə görə Azərbaycan hökumətinə minnətdarlıq bildirilib. Eyni zamanda, Azərbaycan ilə bp arasında sıx əməkdaşlığın davam edəcəyinə əminlik ifadə olunub.

Baş nazir Əli Əsədov cavab məktubunda Azərbaycan hökuməti ilə bp arasında uzun illərdir davam edən səmərəli əməkdaşlığın növbəti uğur hekayəsi olan bu tədqiqat proqramının həyata keçirilməsinə bp şirkətinin və bütün tərəfdaşların töhfəsini yüksək qiymətləndirib.

Birgə səylərlə adıçəkilən proqramın növbəti mərhələlərinin də uğurla icra olunacağına və gələcəkdə AÇG yatağının neftvermə potensialının maksimum reallaşdırılmasına xidmət edəcəyinə əminlik ifadə olunub.

Vurğulanıb ki, Azərbaycan Prezidenti tərəfindən hökumət qarşısında qoyulan prioritet vəzifələrə uyğun olaraq, bp-nin ölkəmizdəki fəaliyyətinə və qarşılıqlı faydalı əməkdaşlığa bundan sonra da davamlı şəkildə lazımi dəstək göstəriləcək.

**XQ**

# Ermənistan konstitusiyasındakı ərazi iddiaları sülhə maneədir

**Ermənistan konstitusiyasında təsbit edilmiş Azərbaycana qarşı ərazi iddiaları Bakı ilə İrəvan arasında sülh prosesində gələcək irəliləyiş üçün yeganə maneə olaraq qalır.**



Bunu "Azadlıq" radiosuna Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, səfir Elçin Əmirbəyov deyib.

"Söhbət Konstitusiyanın Azərbaycanın təzyiqi altında dəyişdirilməsindən deyil, seçicilərin bir suala cavab verməsindən gedir: Siz sülh istəyirsiniz, yoxsa Azərbaycanla yeni qarşıdurma üçün fürsət? Əgər Ermənistan hakimiyyəti sualı bu cür qoyarsa, düşünürəm ki, referendumda iştirak edəcək Ermənistan vətəndaşlarının əksəriyyəti sülhü dəstəkləyəcək", – o bildirib.

"Biz əmin olmaq istəyirik ki, sülh sazişi keçmişdə olduğu kimi gələcəkdə revanşizmi və ya Azərbaycana qarşı hər hansı ərazi iddialarını mümkünsüz edəcək bir növ sarsılmaz sazişdir", - E.Əmirbəyov əlavə edib.

Azərbaycan Prezidentinin nümayəndəsinin sözlərinə görə, hazırda danışıqları asanlaşdıran amillərdən biri də odur ki, hər iki tərəf qalan məsələlərdən ən mübahisəli olanını - Azərbaycanın qalan hissəsini onun eksklavı olan Naxçıvanla birləşdirəcək nəqliyyat marşrutlarının təşkili, yəni Zəngəzur dəhlizi məsələsini sonrakı mərhələdə həll etməyə razılaşıb.

"Biz qarşılıqlı razılaşma əsasında bu bəndi sülh sazişindən çıxarmaq və onun müzakirəsini sonrakı mərhələyə keçirmək qərarına gəldik. Beləliklə, biz onu mətndən çıxarmağa qərar verdik, lakin bunun ölkələrin gələcəkdə müzakirə etmək və ümumi razılığa gəlmək üçün qayıda biləcəyi məsələlərdən biri olması faktını hələ də mətndə əks etdirə bilərik", – o qeyd edib.

**XQ**

# Təqsirli hərbçilər cəzalandırıldılar

**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mətbuat xidməti məlumat verir ki, ordumuzun hərbi qulluqçuları – əsgərlər Məmmədov Fərid Əjdər oğlu və Abdullayev Firdovsi Mais oğlunun 3 mart 2022-ci il tarixdə Laçın rayonu ərazisində itkin düşmələri ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaq İdarəsində istintaqı aparılmış cinayət işi üzrə Babayev Təbriz Rasim oğluna Cinayət Məcəlləsinin 329.2.1-ci, 329.2.2-ci, 329.2.6-cı və 341.3-cü, Həməşəyev Taleh Möhübbət oğluna isə 341.3-cü maddəsi ilə ittiham elan edilmiş və iş baxılması üçün Füzuli Rayon Hərbi Məhkəməsinə göndərilmişdir.**

Füzuli Rayon Hərbi Məhkəməsinin 22 sentyabr 2023-cü il tarixli hökmü ilə Babayev Təbriz Rasim oğlu və Həməşəyev Taleh Möhübbət oğlu onlara elan olunmuş cinayət əməllərini törətməkdə təqsirli bilinərək, müxtəlif müddətlərdə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşlar.

Allahdan hərbçilərimizə rəhmət, doğmalarına səbir diləyirik.

**XQ**



# "33 illik Nüvədi həsrəti"

**Dünən Qərbi Zəngəzurun Nüvədi kəndinin əhalisinin deportasiyasının 33 illiyinə həsr edilmiş "33 illik Nüvədi həsrəti" adlı anım mərasimi keçirilib.**



Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli avqustun 8-nin Ermənistan tərəfindən soydaşlarımızın sonuncu deportasiyası (1988-1991) zamanı Nüvədi kəndinin boşaldılmasının 33-cü ildönümü günü olduğunu diqqətə çatdırıb.

Mehri rayon icmasının sədri Fikrət Əliyev ulu öndər Heydər Əliyevin nüvədililərlə bağlı səsləndirdiyi fikirləri xatırladıb, onların mübarizəsini yüksək qiymətləndirib. F.Əliyev soydaşlarımızın Qərbi Azərbaycandan sonuncu deportasiyası zamanı nüvədililərin 4 il mübarizə apardıqlarını vurğulayıb.

Digər çıxış edənlər də nüvədililərin işğalçılara qarşı mərdliklə mübarizə aparmalarından danışıb, onların qəhrəmanlıq nümunəsi göstərdiklərini bildiriblər.

**XQ**

# ABŞ Zəngəzurda nə axtarır?

(əvvəli 1-ci səhifədə)



Əgər yayılan məlumatlara inansaq, ABŞ texnki cihazlarla yanaşı, özünün 30-50 nəfərlik hərbi heyətini də bölgəyə göndərib. Bu zaman sərhədə nəzarəti tam ələ keçirmək üçün səriştəsinə inanmadığı yerli erməni hərbçilərindən deyil, onların formasında olan öz sərhədçilərindən yararlanmaq istədiyi versiyası irəli sürülüb. Uniforma dəyişməsi isə Rusiya və İranın diqqətini sərhəddə yerləşdiriləcək şəxsi heyətdən yayındırmaq məqsədi daşıdığı bildirilir. Hətta seçimin ABŞ ordusunda xidmət edən erməni əsilli hərbçilər, eləcə də postsovet ölkələrindən ora köçmüş qafqazlılar arasından edildiyinə diqqət çəkilir. Bu kontingentin artıq Ermənistanın Zəngəzurdakı hərbi hissəsində yerləşdirildiyi xəbər verilir.

Açığı, bu informasiyanın İrəvanın düşünülmüş şəkildə, maraqlı tərəflərin reaksiyasını öyrənməkdən ötrü dövriyyəyə buraxdığı feyk-xəbər olması versiyası da özünün mövcudluq statusunu qoruyub saxlamaqdadır.

* * *

Yayılan informasiyadan öyrənirik ki, Bakının iştirak etmədiyi üçtərəfli (ABŞ–Aİ–Ermənistan) Brüssel görüşündə imzalanmış sənədin hərbi-texniki əməkdaşlığın da nəzərdə tutulduğu məxfi hissəsinə uyğun şəkildə, okeanın o tayından Ermənistan ordusu üçün ABŞ istehsalı olan yeni nəsil silahlar – snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, eləcə də zirehli texnika gətirilib. Bundan başqa, yayılan xəbərlərdə Ermənistan xüsusi təyinatlıları üçün NATO-da istifadə olunan mini-hücum pilotsuz təyyarələri, kiçik ölçülü minalar və digər döyüş sursatlarının çatdırıldığı da yer alıb. "Caliber.az"-ın məlumata görə, bundan əvvəl ABŞ hərbçiləri erməni xüsusi təyinatlılarına həmin sursatlardan istifadə üzrə təlimlər keçiblər. Ermənistan tərəfi isə bu silahları real şəraitdə sınaqdan keçirmək üçün Kəlbəcər istiqamətində Azərbaycan Ordusunun bölmələrinə qarşı hərbi təxribat törədib. Məlumatda ABŞ-dan Ermənistana gətirilən silah-sursatın yerli relyefə və hərbi şəraitə uyğunlaşdırıldığı da yer alıb. Maraqlıdır, görəsən həmin "uyğunlaşdırma" prosesində Ermənistanın Azərbaycanla şərti sərhədi boyu düzülmüş Aİ-nin mülki missiyasının bizim mövqelərimizlə bağlı topladığı kəşfiyyat məlumatlarından hansı formada istifadə olunub? Ümumiyyətlə, sülh danışıqlarının fəal dəstəkləyicisi rolunda qaldığını bəyan edən Ağ ev Administrasiyası Azərbaycanın sülh sazşinin imzalanması üçün irəli sürdüyü şərtlərlə razılaşmadığı üçünmü Zəngəzura "qoşun" yeridir? Axı, Bakı bu dəhlizin Azərbaycan üçün həyati əhəmiyyət kəsb etdiyini Dövlət Departamentinin başçısı Antoni Blinkenin nəzərinə dəfələrlə çatdırıb. Sülhə nail olmağa qoymayan digər amil Ermənistan konstitusiyasında təsbit edilmiş Azərbaycana qarşı ərazi iddialarıdır.

"Söhbət Ermənistan konstitusiyasının Azərbaycanın təzyiqi altında dəyişdirilməsindən deyil, seçicilərin bir suala cavab verməsindən gedir: Siz sülh istəyirsiniz, yoxsa Azərbaycanla yeni qarşıdurma üçün fürsət? Əgər Ermənistan hakimiyyəti sualı bu cür qoyarsa, düşünürəm ki, referendumda iştirak edəcək Ermənistan vətəndaşlarının əksəriyyəti sülhü dəstəkləyəcək". Bu fikirləri Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, səfir Elçin Əmirbəyov "Azadlıq" radiosuna müsahibəsində səsləndirib. Onun sözlərinə görə, hazırda danışıqları asanlaşdıran amillərdən biri də odur ki, hər iki tərəf qalan məsələlərdən ən mübahisəli olanını – Azərbaycanın əsas hissəsini onun eksklavı olan Naxçıvanla birləşdirəcək nəqliyyat marşrutlarının təşkili, yəni Zəngəzur dəhlizi məsələsini həll etməyə razılaşıb: "Biz qarşılıqlı razılaşma əsasında bu bəndi sülh sazişindən çıxarmaq və onun müzakirəsini sonrakı mərhələyə keçirmək qərarına gəldik. Amma bunun tərəflərin gələcəkdə müzakirə etmək və ümumi razılığa gəlmək üçün qayıda biləcəyi məsələlərdən biri olması faktını hələ də mətndə əks etdirə bilərik". Göründüyü kimi, Bakı və İrəvanın vasitəçisiz, birbaşa dialoq formatında razılaşdığı məsələnin həlli variantı kənar aktorların mənafeyi ilə üst-üstə düşməyib. Axı, ABŞ üçün tərəflər arasında sülh sazişinin imzalanmasından daha vacib və strateji sual Zəngəzur dəhlizinin kimin nəzarəti altında fəaliyyət göstərəcəyi məsələsidir. Fəqət, Ağ evin bu platformada Rusiya ilə kəllə-kəlləyə gəlməyə qərar verməsi inandırıcı görünmür.

* * *

İrəvan isə belə hərbi-siyasi vurnuxmalara vaxt itirməkdənsə keşiş Baqrat Qalstanyanın sentyabr ayına vəd etdiyi "qaynar payız"a necə hazırlaşmaq barədə düşünsün. Onun bunun əvəzinə sülh danışıqlarında aradığı bütün ayri yollar eyni ünvana aparıb çıxaracaq. Bü ünvanın adı – Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqdır. Əks-təqdirdə, özünü Şərq və Qərb, ABŞ və Rusiya arasında "istismar müddəti bitmiş" siyasi poliqona çevrilən Ermənistanın yaxın gələcək üçün ən yaxşı perspektivi Ukraynanın taleyini yaşaması olacaq.

O ki qaldı Vaşinqtonun Cənubi Qafqazda "çoxbaşlı" oyunlarına, onun bölgədə, hətta Zəngəzurda yerləşmək planlarına və guya, vaxt udmaq niyyətinə, bunların hamısı arxada qalmış mərhələdir.

**P.S. ABŞ Administrasiyası Yaxın Şərqdəki hərbi mövcudluğunu kreyser və esmineslərin, həmçinin əlavə təyyarələrin yerləşdirilməsi yolu ilə gücləndirir. Müdafiə naziri Lloyd Ostin deyib ki, ABŞ Yaxın Şərqdə mövcudluğunu saxlamaq üçün "Avram Linkoln" gəmisini iyulun sonunda "Teodor Ruzvelt"lə əvəz edib. O, həmçinin bölgəyə HHM sistemli kreyser və esmineslər, Yaxın Şərqə əlavə döyüş təyyarələri göndərildiyini bildirib. Yəni, indi biz ABŞ-nin Yaxın Şərq "ssenarisinə" Zəngəzur dəhlizi məsələsini də daxil etməsi versiyasına inanaq?**

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Fikrət Sadıxov, Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Ermənistan hakimiyyəti son vaxtlar mütəmadi şəkildə Rusiyaya göstərir ki, ondan tamamilə uzaqlaşmaq və Avropa, ABŞ ilə yaxın olmaq istəyir. İrəvan Vaşinqtonla hərbi-texniki əməkdaşlığın inkişafında maraqlı olduğunu nümayiş etdirir. Aydın məsələdir ki, Ağ evin əsas məqsədi rusları Zəngəzurdan sıxışdırmaqdır. Yəni, Rusiya sərhədçilərinin bu dəhlizi qorumalarına imkan verməmək, həmin kontingenti amerikalı əsgərlərlə əvəzləmək. Bəlkə də, orada müəyyən sayda şəxsi heyətə malik hərbi baza yaratmaq planı var.

Belə bir plan, hətta, reallaşarsa onun Ermənistana hansı faydanı verəcəyini deməyə çətinlik çəkirəm. Axı, İrəvan sərhəddə rusları amerikalılarla əvəz etməyi bacaracağını birmənalı söyləmək qeyri-mümkündür. Bunlar ciddi sualları ortaya gətirən məqamlardır. Paşinyan iqtidarının bunu asanlıqla edə biləcəyinə şübhəm var. Sadəcə, bölgədə Rusiya ilə ABŞ arasında yeni qarşıdurma meydanı yarana bilər.

Azərbaycan bütün hallarda, – istər ruslar olsun, istər amerikalılar – Zəngəzur dəhlizindən istifadə etməlidir. Gec-tez bu dəhliz açılmalıdır. Çünki Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiya açılmalıdır. Buna mütləq nail olacağıq. İrəvandakılar da bunu başa düşməli və nəticə çıxarmalıdırlar.

### Ekspert rəyi



**Rasim MUSABƏYOV, Milli Məclisin deputatı:**

– Rəsmi mənbələrdən təsdiqlənməmiş məlumata şərh vermək doğru olmasa da, məsələ ilə bağlı bəzi mülahizələrimizi bölüşə bilərik. ABŞ-dən göndərilən bir ovuc hərbçinin ya erməni əsilli olmasının, ya da vaxtilə MDB-dən çıxmış və indi Pentaqonun ordusunda xidmət edən adamlardan olmasının heç bir fərqi yoxdur. Bir dəstə adamın bölgədə hərbi balansı dəyişmək iqtidarında olmaması birmənalıdır. ABŞ-dən hansısa snayper tüfəngləri, xüsusi cihazların göndərilməsinə gəldikdə isə bunların da Azərbaycan üçün ciddi təhlükə yarada biləcəyindən danışmaq yersiz olar.

Əslində, mediada yazılanlar özünün təsdiqini tapmış fakta çevriləcəyi təqdirdə, bu, daha çox həm Rusiyada, həm də İranda qıcıq yaratmalıdır. Axı, Ermənistanın İranla sərhədini Rusiya sərhədçiləri qoruyurlar. Yəni, bu məsələ ilk növbədə Rusiyanın sərhəddəki hərbi bazasının rəhbərliyini narahat etməlidir. Sonra da İranı ciddi şəkildə narahat etməlidir. İndi onlar zəhmət çəkib səslərini çıxarsınlar. Azərbaycan tərəfinin boynuna düşən vəzifə bunu fakt olaraq təsdiqləyərək lazımi səviyyədə təqdim etməkdir. Amma, dediyim kimi, baş vermiş hadisəyə əsas reaksiya Moskvadan və Tehrandan gəlməlidir.

# Ermənistan Türkiyə ilə Azərbaycanın arasını vurmaq istəyir

## İrəvanın siyasi elitası fürsəti əldən vermir

**Ermənistanda sülhdən yayınmağın ən müxtəlif forma və vasitələri nəzərdən keçirilir. İndiyədək də ölkənin siyasi industriyası mövcud istiqamətdə səylər göstərib. Ancaq heç vaxt istəyinə nail ola bilməyib. Görünür, onun üçün köhnə-yeni metodlar "əhəmiyyətini" yenə saxlamaqdadır.**



Bəli, əvvəllər də erməni siyasi dairələri Azərbaycanla Türkiyə arasında nifaq salmağa çalışırdılar. Belə düşünmək olar ki, eyni davranışlarını təkrarlamaqda israrlıdırlar. Əlqərəz, onlar bildirirlər ki, son dəmə, Türkiyə Azərbaycan–Ermənistan sülh sazişinin imzalanmasında maraqlıdır, amma Bakı buna razı deyil.

Eyni zamanda, o da bildirilir ki, Türkiyə Qərb deməkdir və ölkə Qərbin maraqlarından çıxış edir. Azərbaycan isə bu maraqlara meydan oxuyan tərəfdir. Nəticə etibarilə mövcud durum, guya, Bakı ilə Ankara arasında ziddiyyət doğuracaq.

Qeyd edək ki, Ermənistanda haqqında söz açdığımız siyasi təxribata baş vuranlar iki qütbə bölünürlər. Onlardan birincisi ölkənin revanşist-şovinist kəsimidir. Digər tərəfdən, baş nazir Nikol Paşinyan administrasiyası da Bakı ilə Ankara arasında gərginliyin formalaşmasında maraqlıdır. Birincilər Azərbaycanın sülhdən yayınması ritorikası fonunda Bakının Türkiyənin də sıralarında yer aldığı Qərbə qarşı çıxdığını qabartsalar da, ölkəmizin sərbəst şəkildə bu xətti seçdiyi üzərində dayanırlar. Təxminən belə: Azərbaycan dünyaya meydan oxuyur. Paşinyan iqtidarını təmsil edənlər və onun tərəfdarları isə bildirirlər ki, Bakının Qərbə əks mövqeyini şərtləndirən güc Rusiyadır. Yəni, guya ki, ölkəmiz Moskvaya arxalanıb Qərbin, o cümlədən Türkiyənin ziddinə gedir.

Göründüyü kimi, erməni siyasilər son dərəcə hiyləgər yoldadırlar, necə deyərlər, suyu bulandırmaqla məşğuldurlar. Onlar yaxşı başa düşürlər ki, Ankara və Bakı strateji məsələlərdə birlikdə addım atırlar. Üstəlik, hazırda bu birliyi şərtləndirən amil həm də Cənubi Qafqaz regionunun mənafeyidir. Həm Türkiyə, həm Azərbaycan, həm də Rusiya bu mənafelərə kənar təsirləri arzulamırlar. Üstəlik İran amili də var ki, rəsmi Tehran da prinsipcə bölgədə Qərbi görmək istəmir. Amma Qərbi regiona gətirməyə can atan, daha doğrusu, Qərbin regionda möhkəmlənmək siyasətində alətə çevrilən Ermənistandır. Ölkə çalışır ki, alətə çevrilmənin mükafatı kimi onun ortaya atdığı avantürist siyasət dəstəklənsin.

Bəli, Ermənistan Azərbaycanla sülhdən yayınır və bu yayınmada Bakı ilə Ankara arasında ziddiyyət yaratmaq xətti də onun üçün aktual səciyyə daşımaqdadır. Əslində, rəsmi İrəvan 44 günlük müharibə başa çatan ilk gündən eyni siyasi trayektoriyada hərəkət edib. Ancaq əvvəldə də bildirdiyimiz kimi, bu yolların heç biri fayda verməyib. Rəsmi İrəvan həmişə uduzan tərəf olub. Heç şübhəsiz, yenə elə olacaq.

Bəli, Ermənistan hakimiyyəti sülhdən yayınmaqla, Azərbaycanın şərtlərini yerinə yetirməkdən boyun qaçırmaqla özü üçün vəziyyəti bir qədər də çətinləşdirir. Deməli, sülh sazişindəki mümkün faydalardan da məhrum duruma düşür.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Qlobal gərginlik Azərbaycanla Rusiyanın həmrəyliyini tələb edir

**Azərbaycan Prezidenti İlham Əliyev Sergey Şoyqu ilə dəfələrlə söhbət edib. Əvvəllər onu Bakıda Rusiya Müdafiə Nazirliyinin rəhbəri qismində qəbul ediblər və danışıqların hər biri dolğun və konstruktiv olub. Sergey Şoyqunun yeni statusu və Vladimir Putinin ona verdiyi xüsusi səlahiyyətlər müzakirə edilən məsələlərin əhatə dairəsini xeyli genişləndirib. Bu kontekstdə postsovet məkanında, Avrasiyanın cənub hissəsində və qlobal miqyasda gərginliyin artması fonunda yaranan vəziyyətin Rusiya və Azərbaycan kimi tarixi dostluq əlaqələri olan strateji tərəfdaşlardan təhlükəsizliyin möhkəmləndirilməsi, həmçinin milli maraqların və dövlət suverenliyinin müdafiəsi üzrə ən geniş spektrdə əlaqələndirilmiş yeni qərarların işlənib hazırlanmasını tələb etdiyini qeyd etmək lazımdır.**

Bu fikirləri rusiyalı politoloq, "Polit-Rus" ekspert-analitika mərkəzinin rəhbəri Vitali Arkov Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun Azərbaycana səfərini və Prezident İlham Əliyevin onu qəbul etməsini şərh edərkən bildirib.



Ekspert Sergey Şoyqunun Tehrana səfərindən sonra Bakıda keçirilən yüksəksəviyyəli görüşdə dövlətimizin başçısı ilə əsas həlqəsi Azərbaycan olan və artıq iştirakçı ölkələrin tərəqqisinin ciddi hərəkətvericisinə çevrilən multimodal "Şimal–Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafını müzakirə etməsini tamamilə məntiqli adlandırıb.

"Tamamilə aydındır ki, getdikcə daha çox dövlət və ərazi "Şimal–Cənub" nəqliyyat dəhlizi ilə əlaqə qurmağa çalışır. Biz BRICS, ŞƏT və Aİİ tərəfindən böyük marağın olduğunu müşahidə edirik. Azərbaycan Qlobal Cənubun əsas dünya proseslərinə təsirinin artması ilə eyni vaxtda siyasi, iqtisadi və ekoloji (COP29-a ev sahibliyi edən ölkə kimi) avanqardda xüsusi yer tutur", - deyə agentliyin həmsöhbəti qeyd edib.

V.Arkov ehtimal edir ki, Tehrana səfərin yekunlarına dair Bakıda keçirilən görüşdə təkcə "Şimal–Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində deyil, həm də xüsusi əhəmiyyət kəsb edən digər sahələrdə üçtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Onun sözlərinə görə, bu məsələ Moskva ilə İrəvan arasında münasibətlərdə artan problemlər nəticəsində gündəmə gəlib. Belə ki, Ermənistan əvvəllər Rusiya ilə İran arasında ictimaiyyətə açıqlanmayan təmaslarda yaxından iştirak edib, lakin sonradan rəsmi şəkildə qərbyönlü xarici siyasət kursu götürüb və əlbəttə ki, öz ərazisini ABŞ və Fransanın bölgədəki çirkin maraqlarının forpostuna çevirməyə imkan verib.

"Demək olar ki, Ermənistanın tezliklə Rusiya ilə birlikdə tarixən əsaslandırılmış yola qayıdacağı dəqiqdir. Lakin İranın qeyri-sabitliyi və etibarsızlığı nəticəsində Moskva və Tehran seçimini əldə olunmuş razılaşmalara ciddi əməl edən və beynəlxalq statusda bərabərhüquqlu tərəfdaş olan Bakının xeyrinə əvvəlcədən müəyyən ediblər", - deyə rusiyalı politoloq sözlərinə yekun vurub.

# Revanşistlər yenə qarşıdurma yaradırlar

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, dövlətlərarası yolun bir hissəsinin də keçdiyi Kirantsa aparan körpü sərhəd müəyyənləşdirildikdən sonra Azərbaycan tərəfinə təhvil verilib. Ermənistan artıq istismarda olan yola alternativ yolun inşasına başlayıb.

Ermənistanın dövlət qurumunun yayılmış məlumatı rəsmi şəkildə təkzib etməsinə baxmayaraq, ölkənin bir sıra media orqanları və siyasətçiləri bu hadisə ətrafında şou yaratmağa çalışırlar. Onlardan biri parlamentin deputatı Qarnik Danielyandır.

Danielyan ölkənin ikinci prezidenti, 1980-ci illərin sonunda Qarabağda başlayan etnik separatizmin ən fəal iştirakçılarından biri, Xocalı qatili Robert Koçaryanın başçılıq etdiyi "Hayastan" blokunun siyahısı üzrə 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar parlament seçkilərində deputat seçilib. Məlum olduğu kimi, Koçaryan mandat qazansa da, parlamentin işində iştirakdan imtina etmişdi. Onun əvəzinə parlamentdəki "Hayastan" blokuna Seyran Ohanyan başçılıq edir. Partiya mənsubiyyətinə görə, "Daşnaksütyun"un üzvü olan 40 yaşlı Danielyan hayların qanunverici orqanında Tavuş vilayətini təmsil edir. O, erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri Baqrat Qalstanyanın "Vətən naminə Tavuş" hərəkatının fəal iştirakçılarındandır.



Bugünlərdə "Nyus.am" saytına müsahibə verən deputat xislətinə sadiq qalaraq, olmayan hadisələr barədə danışarkən ictimai rəyi manipulyasiya etməyə, necə deyərlər, qaşınmayan yerdən qan çıxarmağa çalışıb. Müsahibədə ilkin olaraq deputatın ölkəsinin sülh danışıqları apardığı Azərbaycanı "düşmən" adlandırması diqqəti cəlb edir. Danielyan deyib: "Düşmən Ermənistan və Azərbaycan sərhədçiləri arasında insident baş verən Kirantsdakı yeni yola yaxınlaşıb və dayanıb".

O, Ermənistan milli təhlükəsizlik xidmətinin insident olmadığı barədə bəyanatını təkzib edib: "Erməni və azərbaycanlı sərhədçilər arasında baş verən insident barədə bir çox kənd sakinləri danışıblar. Kirantsın bir sıra sakinləri mənə azərbaycanlıların salınan yeni yolla bağlı tələblərinin olduğunu bildiriblər. Azərbaycan xırda təxribatlara əl atır (?) və bununla göstərir ki, erməni xalqı ilə dinc yanaşı yaşamaq istiqamətində heç bir istəyi yoxdur".

Onun qiymətləndirməsinə görə, Tavuşda delimitasiya yox, birtərəfli güzəşt (?) olub: "Azərbaycan Ermənistan ərazilərinin təhvil verilməsi müqabilində heç nədə güzəşt etmədi. Berkaberdə vətəndaşlar 900 hektarlıq torpaq sahəsi ilə bağlı imza toplamağa başlayıblar. Paşinyan bu torpağı onlara qaytaracağına söz verib, lakin qaytarmayıb. Üstəlik, Azərbaycan Tavuşda əraziləri aldıqdan sonra azərbaycanlıların Ermənistanda məskunlaşdırılması və sair formada yeni tələblər irəli sürüb".

Daşnak qeyd edib ki, bu fonda Paşinyan Tavuşa gəlir və insanların vəziyyətdən şikayət etməsindən narazılığını bildirir. "Paşinyan Ermənistan ərazisini düşmənə təhvil verməsini (?) problem hesab etmir. O, "Artsax" haqqında da eyni sözləri demişdi və bundan problem yaratmamağı təklif etmişdi" – deyən Danielyan qısa müsahibədə ikinci dəfə ölkəmizlə bağlı "düşmən" sözünü işlədib.

Onun sözlərinə görə, guya, Tavuşda əhali kənd təsərrüfatı ilə məşğul ola bilmədiyi üçün ciddi şəkildə narahatdır ki, bu da əhalinin xaricə axını baxımından demoqrafik problemlər yarada bilər. Guya, investorlar Kirantsa gedən yolun Azərbaycan tərəfindən hər an bağlana biləcəyindən narahat olduqları üçün etibarsızlıq potensial investisiyalara da təsir edirmiş: "Ermənistan ciddi problemlərlə üz-üzədir. Belə bir şəraitdə hakimiyyət nümayəndələri məzuniyyətə çıxır və velosiped sürürlər. Bu davranış insanı şoka salır".

Erməni deputatın səsləndirdiyi fikirlər əsasında gəlinən qənaət bundan ibarətdir ki, ölkədəki radikal-revanşistlər bu ilin yazında B.Qalstanyanın hərəkatının timsalında növbəti dəfə məğlubiyyətə uğrasalar da, mövqelərində hansısa dəyişiklik etmək niyyətində deyillər. Onlar hələ də xəyallar aləmində yaşayır, hansısa "x" günündə Ermənistanın güclənəcəyini, Azərbaycana qarşı müharibəyə başlayacağını, "Artsaxı geri qaytaracağını" zənn edirlər. Görünür, bu şəxslər hələ də bölgədəki reallığı tam dərk edə bilmirlər. Onlar hələ də başa düşmürlər ki, Prezident İlham Əliyevin dediyi kimi, "Miatsum" kitabı, separatizmin kitabı bağlanıb. Müstəqillik xülyası statusun dalınca gedib. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı lazım olan yerə göndərmişik.

Bu gün Azərbaycan qalib tərəf kimi Ermənistana barışıq əlini uzadıb. Müharibədən sonra sülh danışıqları üzrə 5 maddəlik prinsipləri rəsmi İrəvana təqdim edən də bizik. Paşinyan və onun hökumətinin üzvləri bəzən nala-mıxa vursalar da, sülhün son nəticədə onlara daha çox lazım olduğunu anlayırlar. Radikallar isə öz ölkələrinin mənafeyini düşünməyərək prosesə tormozlayıcı təsir göstərməyə çalışırlar. Başa düşmürlər ki, bununla ilk növbədə öz ölkələrinə pislik edirlər. Danielyan və onunla eyni siyasi düşərgədə olanlar bununla həm də köhnə əyyamda yaşadıqlarını nümayiş etdirirlər.

**Mövzu üzrə söhbətləşdiyimiz politoloq Yeganə Hacıyeva** bildirdi ki, ümumiyyətlə, dezinformasiya hələ münaqişənin davam etdiyi dövrdə danışıqların bütün



mərhələlərində Ermənistanın ictimai-siyasi həyatının bir hissəsi olub. İrəvan, münaqişəni də dezinformasiyalar üzərindən dünyaya özünün mənafeyi baxımından təqdim edib: "Münaqişənin yaranması ilə bağlı, sonra isə işğalçılıq siyasətini əsaslandırmaq üçün dezinformasiyalara əl atıb və proses 1988-ci ildən indiyədək davam edir. Hazırda haqqında danışdığımız və ölkəmizə qarşı informasiya müharibəsi fonunda atılan addımlar da onlardan biridir".

Politoloq qeyd etdi ki, Ermənistan, əslində, bütün addımları ilə vaxt qazanmağa, hərbi potensialını artırmağa, silahlanmağa çalışır. Sonra isə ümumerməni ideologiyasının nüvəsində dayanan ölkəmizə təcavüz faktını hər hansı formada davam etdirməyi hədəfləyir: "Ən ciddi erməni ictimai-siyasi və təhlükəsizlik təsisatlarının kluarlarında səmimi fikirlər belədir ki, biz də silahlanıb o torpaqları sizdən alacağıq. Ermənistan və Azərbaycan arasında mediada ritorikaların formalaşdırılmasına dair danışıqlarda iştirak edən bir şəxs kimi bu fikri mən onlardan eşitmişəm. Bu səbəbdən onlar öz addımlarını əsaslandırmağa çalışırlar. Məsələ bundadır ki, istər dünya, istər Azərbaycan, istərsə də regionda sülh və sabitlikdə maraqlı olan tərəflər Ermənistan tərəfindən real addımlar gözləyirlər. Real addımlar isə bir neçə istiqamətdədir. Bura hüquqi, siyasi, ictimai-siyasi, iqtisadi, logistika və təhlükəsizlik sahələri daxildir. Hazırda sülhə doğru çox ləng addımlar atan Ermənistan tərəfi göstərmək istəyir ki, guya, onlar sülhün tərəfdarlarıdır. Reallıqda isə onların əsas məqsədi proseslərdə vaxt qazanmaq, hərbi potensialı inkişaf etdirmək, o cümlədən silahlanmaq, bundan sonra qarşıya qoyduqları məqsədə nail olmaqdır".

Y.Hacıyevanın fikrincə, ölkəmizin sərhəddə hansısa təxribata əl atması kimi dezinformasiyalar da sadalanan məqsədlərin həyata keçirilməsinə xidmət edir. Qarşı tərəf vacib hesab olunan addımları atmır, əksinə ölkəmizi şərləməklə, danışıqlarda bundan öncə qeydə alınmış pozitiv məqamları mübahisələndirməklə göstərmək istəyir ki, vəziyyət qaydasında deyil. Dezinformasiyalar Ermənistan dövləti, cəmiyyəti, ictimai-siyasi sektoru, mediası tərəfindən aparılır. Sərhəddə, guya, insidentin baş verməsinə dair yayılan xəbər də bu kampaniyanın tərkib hissəsidir.

*Səxavət HƏMİD*
*XQ*

# Diaspor Gənclərinin Yay Düşərgəsində panel müzakirəsi

**Laçında keçirilən Diaspor Gənclərinin V Yay Düşərgəsinin növbəti paneli "Diaspor üçün bir ideyam var" mövzusuna həsr olunub.**



Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasovun moderatorluğu ilə baş tutan panelin qonaqları MaxTexno şirkətinin rəhbəri, İKT üzrə ekspert İlqar Cəfərov, Destec Group şirkətinin İdarə Heyətinin sədri, ADNSU-da rektor müşaviri, biznes konsultant Sakit Səmədov və Strateji kommunikasiya üzrə ekspert Səfər Aslanov olublar.

Vaxtilə xaricdə yaşamış qonaqlar iştirakçılarla maraqlı və interaktiv dialoq quraraq ölkəmizin təbliğinin, Azərbaycanı və azərbaycanlıları tanıtmağın və sevdirməyin yollarını müzakirə edib, bu istiqamətdə öz təcrübələrini bölüşüblər.

Düşərgə iştirakçıları Azərbaycanın tanıdılmasına yönəlmiş biznes imkanlarına, həmçinin diasporun daha da inkişaf etdirilməsinə dair ideyalarını səsləndiriblər.

Müasir dövrün tələblərinə uyğun olaraq informasiya texnologiyaları, rəqəmsallaşma, kibertəhlükəsizlik və digər bu kimi sahələrdə gənclərin özlərini inkişaf etdirməsinin vacibliyi vurğulanıb.



# "Space"in yeni layihələri

**"Space" Müstəqli Teleradio Şirkəti yaradıcı heyəti yeni layihələr üzərində işləyirlər. Sentyabr ayından tamaşaçı və dinləyicilər Space TV-də və 104 FM radio lğasında bir sıra yeniliklərin və maraqlı dəyişiklikərin şahidi olacaqlar.**

Telekanalın bir neçə çəkiliş pavilyonu əsaslı yenilənərək təzə verilişlər üçün hazır vəziyyətə gətirilib. Müxtəlif formatlarda bir neçə yeni veriliş həm canlı, həm də montaj edilərək efirdə yayımlanacaq. Yeni aparıcılar da tamaşaçılarla görüşlərinə yeni forma və məzmunlu proqram və verilişlərlə gələcəklər. Space TV ölkəmizin televiziya məkanında daha bir ilkə də imza atacaq. Telekanalda gənc qeymerlərin "PUBG" onlayn multipleyer döyüş oyunu keçiriləcək.




104 FM radiostansiyasında da yeni layihələr hazırlanır. Verilişlərin və yayımın keyfiyyətini yüksəltmək üçün müasir qurğular, cihazlaralınıb, avadanlıq yenilənib, efir otağı təmir edilib. Sentyabrdan dinləyicilərə gündüz saatlarında, həftəiçi praymtaym saatlarında, eləcə də həftəsonu təzə proqramlar təqdim ediləcək.

**XQ**

# Jurnalistika ixtisası üzrə qabiliyyət imtahanı başa çatıb

## *634 nəfər "məqbul" qiymət alıb*

**Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün avqustun 4-də keçirilmiş qabiliyyət imtahanının nəticələrini elan edib.**

DİM-dən bildirilib ki, imtahanda iştirak etmək hüququ qazanmış 893 abituriyentdən 188 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən abituriyentlərdən 634 nəfər "məqbul" qiymət alıb. Məqbul qiymət alan abituriyentlər ixtisas seçimi zamanı öz elektron ərizələrində digər ixtisaslarla yanaşı jurnalistika ixtisasını da seçə bilərlər. İxtisas seçimi avqustun 9-dan 19-dək aparılacaq.



İmtahan nəticələri ilə bağlı Apellyasiya komissiyasına müraciət etmək istəyənlər 8 avqust saat 10:00-dan 9 avqust saat 17:00-dək DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan apellyasiya üçün müraciət edə bilməyəcəklər.

**XQ**

# Türkiyə–Azərbaycan Universitetinə ilk qəbul keçirilir



**Builki tədris ilində fəaliyyətə başlayacaq Türkiyə–Azərbaycan Universitetinin ünvan məlum olub. Yeni tədris ocağı Bakının Xətai rayonunda, Bakı Ali Neft Məktəbinin Xocalı prospektində yerləşən binasında fəaliyyət göstərəcək.**

Artıq tələbə qəbulu ilə bağlı universitetdə müvafiq tədbirlər həyata keçirilir. Məlumata görə, bu il universitetə 90 tələbənin qəbulu nəzərdə tutulub. Xatırladaq ki, TAU tələbə qəbulu elan edib. Abituriyentlər 9-19 avqust tarixlərində ixtisas seçimində iştirak etməklə TAU-nun kompüter mühəndisliyi, sənaye mühəndisliyi və qida mühəndisliyi ixtisaslarını seçə bilərlər.

TAU-da tədris prosesinə Türkiyədən Orta Doğu Teknik Universiteti, İstanbul Texniki Universiteti və Haccettepe Universiteti, Azərbaycandan isə Azərbaycan Texniki Universiteti tərəfdaş kimi cəlb olunub.

**XQ**

**Milli Məclisə seçkilərə 23 gün qaldı**

**SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!**



# Yerlərdə maarifləndirici tədbirlər davam edir

**Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Aparatının və Mərkəzi Seçki Komissiyasının (MSK) birgə təşkilatçılığı ilə "Vətəndaşların seçki hüququnun təmin olunması" mövzusunda hüquqi maarifləndirici tədbirlər davam etdirilir. Bu istiqamətdə növbəti "dəyirmi masa" Masallıda təşkil olunub.**



Tədbirdə çıxış edən MSK üzvü Validə Kazımova Milli Məclisə növbədənkənar seçkilər ərəfəsində maarifləndirmə tədbirlərinin keçirilməsinin əhəmiyyətindən danışıb, MSK və Ombudsman aparatı tərəfindən birgə təşkil olunan tədbirlərin bütün seçki subyektlərinin maarifləndirilməsi baxımından vacib rol oynadığını nəzərə çatdırıb. Komissiya üzvü, həmçinin MSK tərəfindən görülən işlər, eləcə də təşkil edilməsi planlaşdırılan tədbirlər barədə də ətraflı məlumat verib, bu cür tədbirlərin davam etdirildiyini vurğulayıb.



Ombudsman aparatının rəhbəri Aydın Səfixanlı çıxışında dövlətimizin başçısının 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 3.10-cu bəndinin tələbləri barədə məlumat verib, seçkiyə hazırlıq məqsədilə həyata keçirilən maarifləndirmə tədbirlərindən danışıb. O, ombudsman Səbinə Əliyevanın təşəbbüsü, MSK-nın dəstəyi ilə paytaxtda və regionlarda birgə maarifləndirmə tədbirlərinin keçirildiyini, bu istiqamətdə tədbirlərin artıq Bakıda, Gəncədə və Şəkidə baş tutduğunu, bu gün isə növbəti "dəyirmi masa"nın Masallıda təşkil olunduğunu diqqətə çatdırıb. A.Səfixanlı, eyni zamanda, ölkəmizdə vətəndaşların aktiv və passiv seçki hüquqlarının daha səmərəli təmini istiqamətində həyata keçirilən kompleks tədbirlərdən bəhs edib, müşahidəçilik institutunun əhəmiyyətindən, müvəkkilin və təsisatın bu prosesdəki rolu barədə tədbir iştirakçılarına məlumat verib. Sonra MSK Katibliyinin Təşkilat şöbəsinin baş məsləhətçisi Şirzad Məmmədli tədbirdə məruzə edib. O, respublikamızda seçkilərin yüksək səviyyədə təşkil olunması ilə bağlı görülən tədbirlərdən, MSK tərəfindən həyata keçirilən işlərdən, seçicilərin öz konstitusion hüquqlarını sərbəst şəkildə ifadə etməsi üçün yaradılan imkanlardan danışıb. Tədbirdə, həmçinin mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***XQ***

# "Müşahidəçilər üçün yaddaş" kitabçası




## *Mərkəzi Seçki Komissiyası "Müşahidəçilər üçün yaddaş" kitabçasını çap etdirib*

**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar MSK-nın maarifləndirmə proqramı çərçivəsində müxtəlif statuslu seçki iştirakçıları üçün fərqli istiqamətlər üzrə layihələr davam etdirilir.**

Genişmiqyaslı proqrama uyğun olaraq hazırlanan "Müşahidəçilər üçün yaddaş" kitabçasının əsas məqsədi Milli Məclisə seçkiləri izləyəcək yerli və xarici müşahidəçiləri məlumatlandırmaq, onların sərbəst fəaliyyətini daha da təkmilləşdirmək, eləcə də əyani-metodiki kömək göstərməkdir.

Azərbaycan, ingilis və rus dillərində hazırlanan nəşrdə Seçki Məcəlləsinin müvafiq müddəa və anlayışlarının izahı verilməklə yanaşı, seçki məntəqələrində müşahidə aparılmasının prinsipləri, həmçinin müşahidəçilərin hüquq və vəzifələri öz əksini tapıb.

Yaddaş kitabçası Seçki Məcəlləsi və MSK-nın təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında tərtib olunub.

"Müşahidəçilər üçün yaddaş" kitabçasını aşağı seçki komissiyalarından, eləcə də MSK-nın rəsmi internet səhifəsindən (www.msk.gov.az) əldə etmək mümkündür.

***XQ***

# Seçkiqabağı təşviqat 22 gün davam edəcək

**Milli Məclisə növbədənkənar seçkilərdə seçkiqabağı təşviqat üçün ayrılmış görüş yerlərinin siyahısı açıqlanıb. Bu yerlər "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna müvafiq olaraq ayrılıb.**

Mərkəzi Seçki Komissiyasının (MSK) rəsmi saytında təşviqat üçün ayrılan açıq və qapalı yerlərin siyahısı dərc olunub.

Xatırladaq ki, növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqatın aparılmasına avqustun 9-dan başlanılacaq. Təşviqat prosesi avqustun 31-i saat 08:00-a kimi davam edəcək.

***XQ***



# Yaxın Şərq: gərginlik partlayış həddinə çatıb

**Ötən həftə HƏMAS-ın siyasi lideri İsmayıl Haniyənin Tehranda öldürülməsindən sonra Yaxın Şərqdə, həqiqətən, gərginlik kritik həddə çatıb. İsrail tərəfi İranın cavab addımlarını gözləyir. Lakin Tehranın "cəza"sının necə və hansı miqyasda olacağını hələlik heç kəs bilmir.**

Ağ ev administrasiysı regionda gərginliyin artmasından narahatdır. İqtidarda olan demokratlar seçki öncəsi Yaxın Şərqdə böyük savaşın başlanmasını istəmir. Bu, zəif qlobal idarəçilik anlamına gətirib çıxara bilər.

Prezident Co Bayden bazar ertəsi milli təhlükəsizlik komandası ilə görüşüb və ötən  həftə baş vermiş bir neçə səs-küylü sui-qəsddən sonra Yaxın Şərqdə artan gərginliyi aradan qaldırmaq üçün İordaniya kralı ilə danışıb.

İranın xarici işlər naziri vəzifəsini icra edən Əli Baqeri Kani

Suriyanın xarici işlər naziri Feysəl Əl-Mikdad ilə avqustun 7-də baş tutan telefon danışığı zamanı dbildirib ki, ABŞ və bəzi Avropa ölkələri regionda qeyri-sabitliyə səbəb olublar. O, həmin dövlətləri terrora dəstək verməkdə ittiham edib.

Bəli, Yaxın Şərqdə vəziyyət günbəgün pisləşir. Dünən məlum olub ki, İsrailin hərbi hava qüvvələri "Hizbullah"ı "yerində oturtmaq" məqsədilə Livanın cənubunda hava hücumları həyata keçiriblər. Bu hücum dörd nəfərin ölümünə səbəb olub. "Hizbullah" isə çərşənbə axşamı İsrailə dron hücumu etdiyini bildirib.



Birləşmiş Ştatlar hökuməti Yaxın Şərqdəki vasitəçilərin köməyi ilə İranı sonrakı eskalasiyadan imtina etməyə çalışır. Tehran bu təzyiqlər qarşısında geri çəkilə bilərmi? İran böyük ehtimalla öz simasını qorumaq üçün İsrailə qarşı kəskin hücumlar həyata keçirməyə cəhd edəcək.

Ağ evin mətbuat katibi Karin Jan-Pyer dünən keçirdiyi növbəti brifinqdə Yaxın Şərqdə gərginliyin qarşısını almaq üçün Vaşinqton və Tehran arasında birbaşa təmasların olması ilə bağlı suala cavab verməkdən yayınıb: "Biz İsraili müdafiə edəcəyimizi açıq şəkildə bildirdik, lakin münaqişənin eskalasiyasını və ya böyüməsini istəmirik. Əvvəldən bu mövqeyimiz aydın idi".

Bu arada İsrailin baş naziri Benyamin Netanyahu ölkəsi İran və ya bölgədə onu dəstəklədiyi qüvvələr tərəfindən hücuma məruz qalacağı təqdirdə, qarşı tərəfə "ciddi hesab" veriləcəyi ilə bağlı xəbərdarlıq edib.

Amerika müsəlman icması isə Baydenin İsrailə dəstəyini tənqid edib. İcmanın rəhbərliyi Vaşinqtonun İsrailin Qəzzaya təcavüzü ilə bağlı qəti mövqe tutmalı olduğunu vurğulayıb.

Dünən İran ordusunun general-mayoru Seyid Əbdülrəhim Musəvi "Jurnalistlər Günü" münasibətilə keçirilən mərasimdə deyib ki, ölkəsi İsrailə tezliklə güclü və qəti cavab verəcək. O bildirib ki, buna heç bir şübhə yoxdur.



Bu arada İsrail müdafiə ordusunun komandanlığı Təl-Əvivdə və ölkənin digər mühüm şəhərlərində əlavə xilasetmə bölmələri yerləşdirib. "The Jerusalem Post" qəzeti xəbər verir ki, axtarış-xilasetmə qrupları və xüsusi texnika paytaxtdakı "Yad Eliyahu" stadionunda yerləşdirilib.

Bu, İran tərəfindən mümkün hücuma hazırlıq məqsədi daşıyır. Yaşayış binaları vurulduğu təqdirdə həmin bölmələr dağıntıların təmizlənməsi və xilasetmə əməliyyatlarını həyata keçirəcək. Xilasedicilərin əlavə qüvvələri Hayfa, Krayot, Eylat və digər şəhərlərə də göndərilib.

Böyük rus rejissoru K.Stanislavski deyirmiş ki "əgər səhnədə divardan tüfəng asılıbsa, tamaşanın sonuna qədər hökmən ondan atəş açılmalıdır". Yaxın Şərqdə də bu gün hamı İranın nə vaxt atəş açacağı anı gözləyir.

"The Wall Street Journal" nəşri məlumat yayıb ki, hazırda gizli kanallar vasitəsilə İranın İsrailə hücumu edəcəyi tarix dəqiqləşdirilir. Prezident Co Bayden bildirib ki, vəziyyət gərginləşərsə, regiona "F-22" qırıcıları və xüsusi aviasiya qrupları göndərəcək.



***Məsaim ABDULLAYEV***
***XQ***

# Müasir mərhələdə dövlət–elm münasibətləri

**III MƏQALƏ**

**Bütün elmlərin həqiqi və qanuni məqsədi ondan ibarətdir ki, insan həyatını yeni ixtira və kəşflərlə bəzəsin.**

**Frensis BEKON**

## Dövlət–elm münasibətləri və dövlətçilik

Dövlət-elm münasibətlərində dövlətçiliyə xidmətin aparıcı yer tutması sovet dönəmindən sonrakı mərhələdə öz bəhrəsini verdi. Hər şeydən öncə, Heydər Əliyev müstəqillik mərhələsində həmin tendensiyanı daha da gücləndirdi. O cümlədən, AMEA-nın bu prosesdə yeri və rolunu yeni səviyyəyə yüksəltdi. Çoxsaylı görüşlərində və müxtəlif tədbirlərdə Ulu öndər AMEA-nın dövlətin müstəqilliyi üçün çalışmalı olduğunu nəzərə çatdırırdı. Eyni zamanda, akademiyanın inkişafı naminə konkret tədbirlər həyata keçirirdi. Bütün bunların nəticəsi olaraq, Heydər Əliyev AMEA-nı ölkənin milli sərvəti elan etdi.

Ancaq əsas məsələ ondan ibarətdir ki, XXI əsrdə dövlət-elm münasibətləri daha incə, mürəkkəb və sürətlə dəyişən geosiyasi şərtlər daxilində öz faydalılığını saxlamalıdır. Başqa sözlə, Azərbaycanda yeni mərhələdə bu münasibətlər də yeni çalarlar almalıdır. Prezident İlham Əliyev bu istiqamətdə davamlı addımlar atmışdır.

Həmin kontekstdə 2008-ci ildə Azərbaycan elmində islahatların aparılması ilə bağlı dövlət başçısının xüsusi sərəncam imzalaması olduqca əhəmiyyətlidir. Sərəncamın giriş hissəsində yazlmışdır: “Azərbaycanda elmi araşdırmaların həyata keçirilməsinin zəngin ənənələri vardır. Yüzillər boyu mütəfəkkir sənətkarlarımız tərəfindən yaradılan və bədii-estetik düşüncə tariximizin incilərinə çevrilən əsərlərdə elmi-fəlsəfi fikirlər parlaq təcəssümünü tapmışdır. Bəşəriyyətin fəlsəfi, mədəni və elmi irsinin Şərqlə Qərb arasında varislik əlaqələrinin qorunub saxlanmasında azərbaycanlı alimlər yaxından iştirak etmişlər. Onlar elmi təfəkkürün ən müxtəlif sahələrində sanballı əsərlər meydana gətirməklə İslam aləminin mədəni intibahına müstəsna xidmətlər göstərmişlər. Dünya elmi fikir tarixinə görkəmli şəxsiyyətlər bəxş edən Azərbaycanda bütün bu dövrlərdə elm özünün yüksək səviyyəsi ilə seçilmişdir”.

Buradan aydın görünür ki, Prezident siyasi varisliyə sadiq qalaraq, ölkənin inkişafında elmin yeri və rolunu çox yüksək qiymətləndirir. Buna görə də XXI əsrin tələblərinə uyğun elmin Azərbaycanda inkişaf etməsini zəruri hesab edir. Həmin əsasda İlham Əliyev “aparılan elmi tədqiqatlar səviyyə etibarilə respublikanın davamlı yüksəlməkdə olan inkişaf tempindən geri” qaldığını da vurğulamışdır. Bütün bunlardan olduqca əhəmiyyətli bir vəzifənin yerinə yetirilməsini Azərbaycan Prezidenti müəyyən etmişdir. Bu məqam aşağıdakı cümlədə ifadə olunmuşdur: “Milli müstəqillik dövrü xalqımıza məxsus mədəni-mənəvi dəyərlərlə bağlı olan istiqamətlərdə bir çox məsələlərin yenidən, azərbaycançılıq məfkurəsi mövqeyindən işıqlandırılmasını aktuallaşdırmışdır”.

Elmdə vacib olan islahatlar kontekstində Prezidentin ayrıca azərbaycançılıq məfkurəsini vurğulaması Heydər Əliyevin XX əsin 70-80-ci illərində və sonra müstəqillik dövrünün 1993-2003-cü illərində həyata keçirdiyi elm siyasətinin inkişafını ifadə edir.

Burada sosio-humaitar elmlərdə azərbaycançılıq məfkurəsinin mərkəzi rol oynaması strateji məqsəd daşıyır. Məsələ onunla bağlıdır ki, XXI əsrdə sosio-humanitar elmlərin aktuallığı daha da artmışdır. Cəmiyyətin yeniləşməsi və inkişafında bu faktor ciddi rol oynayır. Həmin səbəbdən də, Azərbaycanda elmi islahatların aparılması bir tərəfdən, sovet ideologiyasının qalıqlarından azad olmağı, digər tərəfdən isə azərbaycançılığın dövlət quruculuğunda rolunun tam elmi əsasda yenidən aktuallaşmasını nəzərdə tutmalıdır.

Sərəncamdan sonra Azərbaycanda elmin inkşaf strategiyası hazırlandı və onun həyata keçirilməsi prosesinə start verildi. Bu kontekstdə dövlət-elm münasibətləri yeni məzmun çalarları aldı. Onların üzərində dayanmaq faydalı olardı.

## Elm və təhsilin inteqrasiyası

Bu məsələ XXI əsrdə hər bir müstəqil dövlət üçün çox aktuallıq kəsb etməkdədir. Bunun səbəbi isə elmi kəşflərin sürətlə poraktikaya tətbiqi ilə bağlıdır. Nəticədə cəmiyyəti faktiki olaraq elm formalaşdırmış olur. Buna görə də yüksək səviyyəli mütəxəssis hazırlığı dövlətçilik baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycanın strateji inkişafı ilə bağlı hazırlanmış sənədlərdə məsələnin bu tərəfi xüsusi vurğulanır. Məsələn, həmin məqamı “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” adlı sənəddə görə bilərik. Orada ayrıca akademiya ilə bağlı bəndlər vardır. Həmin bəndlərdə cəmiyyətin yeniləşməsi və inkişafında AMEA-nın icracı dövlət strukturu kimi əhəmiyyətli rolu xüsusi vuğrulanır. Burada azərbaycançılıq məfkurəsinin nəzəri araşdırılması ilə yanaşı, cəmiyyətə tətbiqinin məsuliyyəti də vurğulanmışdır. Deməli, ölkənin XXI əsrdə strateji inkişafının iki özəlliyini ayırmaq olar.

Birincisi, Azərbaycanın strateji inkişafı qlobal trendlər kontekstində müəyyən edilmişdir. İkincisi, strateji inkişaf elmmərkəzli proses olmalıdır. Burada müasir elmin nailiyyətləri və yüksək texnologiyaların tətbiqi başlıca yer tutmalıdır. İndiki tarixi mərhələdə bu özəllik dövlət-elm münasibətlərinin nüvəsini təşkil edir.

Ancaq bu iki şərtin səmərəli ödənməsi üçün elmlə təhsilin müasir tələblər səviyyəsində inteqrasiyası vacibdir. Buna görə də XXI əsrdə dövlət-elm münasibətlərində təhsilin rolunun artması yeni əlamətdir.

## Elmi fəaliyyətin yenidən qurulması

İstənilən dövlət üçün elmi fəaliyyətin qurulması indi prinsipial əhəmiyyət daşıyır. AMEA yeniləşmə kursunda bu məqamı çox ciddi nəzərə alır. Məsələ ondan ibarətdir ki, hazırda müxtəlif elmlərin qarşılıqlı əlaqəsi aparıcı rol oynayır. Ona görə də fənlərarası sahədə araşdırma aparmağın önəmi dəfələrlə artır.

Təsadüfi deyil ki, Qərbin elm sahəsində inkişaf etmiş dövlətlərində uşaqları kiçik yaşlarından necə inteqrativ düşündürməyin mümkün olduğunu intensiv araşdırırlar. Meydana çox maraqlı məqamlar çıxır. Məsələn, vahid komanda formasında araşdırma aparmağın insanların intellektini inkişaf etdirdiyi nəticəsi alınmışdır. Bu əsasda universitetlərdə fənlərarası yanaşma üzərində təhsil vermək modeli getdikcə daha da aktuallaşır.

Azərbaycan bu prosesdən kənarda qalmamışdır. AMEA fəaliyyətində fənlərarası yaradıcılıq üsulundan getdikcə daha geniş istifadə edir. Əslində, bu məqam AMEA-nın yeniləşməsinin konseptual və metodoloji aspektlərdə əsas faktorlarından birini təşkil edir.

## Rəqəmsallıq və elektronlaşma

Hazırda dünya miqyasında elmi fəaliyyətin elektronlaşması və rəqəmsallaşması strateji xarakterli məsələ kimi qəbul edilir. Dünyanın aparıcı elmi mərkəzləri, universitetləri bu istiqamətdə çox ciddi irəliləyiş əldə etmişlər. Onlar təşkilatdaxili və beynəlxalq miqyaslarda elmi fəaliyyətlərini maksimum dərəcədə elektronlaşdırmışlar. Bu, həm yaradıcılığın təşkilində və tədqiqatın aparılmasında, həm də alınan nəticələrin qiymətləndirilməsində öz ifadəsini tapır. O cümlədən, qlobal şəbəkə olan indeksli jurnallar şəbəkəsi indi elmi nailiyyətlərin əsas müzakirə edildiyi sistemə çevrilmişdir.

Həm Azərbaycan universitetləri, həm də AMEA bu istiqamətdə müvafiq addımlar atırlar. AMEA-da 2023-cü ilin yanvar ayında “Elektron Akademiya” yaradılmışdır. Bu, AMEA Rəyasət Heyətinin tərkibində yeni şöbədir. Keçən müddət ərzində “Elektron Akademiya” həm təşkilatdaxili mühitin yeniləşmsində, həm də ölkənin ali elmi təşkilatının beynəlxalq əməkdaşlığının müasir tələblər çərçivəsində genişlənməsində müəyyən rol oynayır. Artıq demək olar ki, elektronlaşma və rəqəmsallaşma AMEA-nın elmi həyatına əbədi daxil olmuşdur.



## Beynəlxalq əməkdaşlığın yeni üfüqləri

Azərbaycan alimlərinin beynəlxalq miqyasa çıxışları sürətlə genişlənir. Dünyanın müxtəlif ölkələrində nəşr olunan aparıcı elmi jurnallarda məqalələrin dərci və keçirilən mötəbər elmi tədbirlərdə iştirakın miqyası genişlənir. Bu prosesdə AMEA-nın 2023-cü ildə Beynəlxalq Elmi Şuraya (İSC) üzv seçilməsi, TÜBİTAK-la əməkdaşlığı yeni əsasda qurması, Çin Elmlər Akademiyası və bir sıra nüfuzlu universitetlərlə əməkdaşlıq qurması, Avropa və ABŞ-nin müxtəlif elmi mərkəzləri ilə əlaqələri gücləndirməsi təsirli rol oynamışdır. Bunlarla yanaşı, AMEA dünyanın tanınmış alimləri ilə təcrübə mübadiləsinə də yeni nəfəs vermişdir. Bu kontekstdə Nobel mükafatı laureatı (kimya üzrə) Əziz Səncərlə AMEA-da görüşün təşkil edilməsi əhəmiyyətli hadisə olmuşdur.

Məsələnin üzərində detallı və əhatəli dayanmağa məqalə formatı imkan vermir. Lakin qısa toxunulan məsələrdən də aydın olur ki, Azrbaycanda dövlət-elm münasibətləri faktiki olaraq yeni səviyyəyə yüksəlmişdir. Burada AMEA-nın ayrıca rolu və yeri vardır. Çünki bu ali elm məbədində həyata keçirilən yeniləşmə kursu elmin dövlətçiliyə xidməti aspektində faydalı təcrübə ortaya qoyur. Bu prosesdə özünü göstərən bir sıra aktual məqamlar da bunu sübut edir.

Öncə onu vurğulamaq yerinə düşərdi ki, artıq Azərbaycanda dövlət-elm münasibətləri tam olaraq dövlətçiliyə xidmət “sahəsi”nə oturuşmuşdur. Bu prosesdə azərbaycançılıq əsas yer tutur.

Bundan başqa, dövlət-elm münasibətlərində dünyanın aparıcı elmi dairələri ilə sıx əməkdaşlıq xüsusi yer almışdır. Burada əsas məqsəd Azərbaycan alimlərinin ən yeni elmi nailiyyətlərlə çevik tanış olmasını təmin etməkdən ibarətdir. Eyni zamanda, Azərbaycan alimləri müasir aparıcı elmi araşdırma metodlarına da yiyələnməlidirlər. Bu məqsədə çatmaqda “Elektron Akademiya” nümunəsi mühüm rol oynaya bilər.

Müasir mərhələdə dövlət-elm münasibətlərində elmin ölkənin strateji inkişaf kursuna xidmət etməsi ilk sırada yer almışdır. Daha konkret desək, Azərbaycan elmi birbaşa ölkənin strateji inkişafına fokuslanmışdır. Bu məqam indiki mərhələdə dövlət-elm münasibətlərinin ana xəttini təşkil edir.

Dövlət tərəfindən alimlər qarşısına qoyulan vəzifələr sırasında XXI əsrin kreativ (yaradıcı və innovativ) cəmiyyətinin formalaşdırılması xüsusi yer tutur. Bu, faktiki olaraq, sosial həyatn həm texniki-texnoloji, həm də sosio-humanitar aspektlərini eyni dərəcədə əhatə edir. Bura həm də azərbaycançılıq ideologiyası çərçivəsində milli ruhlu gənc nəslin tərbiyəsi məsələləri də daxildir.

Dövlət-elm münasibələri aspektində ən böyük anlamı isə intellektin geniş mənada dövlətin və ölkənin inkişafının mərkəzinə gətirilməsi ilə bağlıdır. Düşünürük ki, intellektin bu funksiyası, bütövlükdə, Azərbaycanda dövlət-elm münasibətlərinin uğurlu transformasiyalarını təmin edəcəkdir. Azərbaycan həm dövlət, həm də cəmiyyət kimi XXI əsrin ən inkişaf etmiş məkanlarından olacaqdır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Erməni irqçilik düşüncəsi gerizəkalıqdan qaynaqlanır

## “Armenizm”in “andranikizm”, “tsexakronizm”, “erməni fədaizmi”, “erməni faşizmi” kimi “izmlər”i bəşəri təhlükə saçır

**(əvvəli qəzetin 7 avqust sayında)**

### Müasir erməni faşizmi

“Faşizm” anlayışının mənşəyi antik Roma idarəçilərinin geniş hökumət səlahiyyətini simvolizə edir və ucunda balta olan bir çubuq dəstəsinin adıdır, latınca fasces sözündən alınmışdır. Eyni simvol daha sonralar Fransa inqilabı zamanında “işıqlanma” mənasında, xalqın əlindəki dövlət gücünü təmsil edən qüvvə kimi istifadə edilmişdir.

Faşizm bir sıra dəyişikliklərlə 1926-ci ildən etibarən İtalyanın rəsmi dövlət simvolu olmuşdur. Simvol özündə üç mənanı ehtiva edirdi: Dövlət gücü, xalq mülkiyyəti və bərabərlik! Bu şüarlar faşizmin banisi Mussolininin təbliğat kampanyalarında istifadə edilmişdir. Faşizm, diktator rejimlərini möhkəmlətmək üçün istifadə edilən ümumi bir termin olmazdan əvvəl, italyan milliyyətçiliyini təmsil edən ideologiya olaraq ortaya atılmışdır. Ancaq onunla eyni vaxtda ortaya çıxan nasizm və falanjizm kimi cərəyanlar da məqsəd baxımından bir italyan ideologiyası olan faşizmə yaxın olduqları üçün faşizmə bağlı siyasi hərəkətlər olaraq tanınmışlar. Daha sonra bunları almanlar mənimsəmişlər. Faşizm Hitlerin əsas ideoloji silahına çevrilmişdir.

Həmin illərdə ermənilər də faşizmi mənimsəməyə başlamışlar. Avropada özlərinə nicat axtaran müharibə suçluları, Daşnak sütyun partiyasının tör-töküntüləri almanlardan bu ideyanı mənimsəmişlər.

Milliyyətçi və ya irqçi fikirlərin mənimsənilməsi ölkələrə görə fərqli olmuşdur. Məsələn, italyan faşizmində “İtalyan vətəndaşlığı” anlayışı, alman nasizmində isə “Alman qanı daşıma” düşüncəsi ilə hərəkət edilmişdir. Mussolini doktrinasında vətəndaşlıq anlayışına üstünlük verilir, Hitler doktrinasında isə qan bağı xüsusi götürülür.

Erməni faşizmi italyan faşizminə deyil, alman faşizminə daha yaxındır. Elə bu səbəbdən hədəfə çatmaq üçün ermənilər 30-cu illərdə özlərini almanlara sırımağa çalışırdılar. Eyni irqdən olduqlarını “isbatlayan” dəlillər axtarıb “tapmaları” da uzun sürmədi. Faşizm odur ki, içindən bütün sevmədiklərinin ya fiziki məhvinə nail olur, ya da onları köləyə çevirir. Faşist “Yeni nizam” anlayışı ilə Njdenin “Tsexakron” təlimi arasında heç bir fərq yoxdur. Njdenin yaratdığı və bu gün də erməni cəmiyyətinin ideoloji lokomotivi rolu oynayan Tsexakronizm özündə irqçiliyi ehtiva edir. Bu cəhətdən Tsexakron faşizmlə eyniləşir. Müasir dövrün qatı erməni faşisti Zori Balayan Qarabağda keçirilən bir toyda bunları deyir: “…Allah Qarabağı qoruyacaqdır, çünki Allahın özü də erməni və qarabağlıdır”. Bu, artıq faşizmdən də ötə bir şeydir. Sələfi Njde erməni soyunu “ari–ali irq” sayır, çağdaş faşist Balayan isə hətta Allahın da erməni olduğunu iddia edir. Faşizm və erməni irqçi monoetnik milliyyətçiliyi həddindən artıq millətçi, anti-demokratik, anti-kapitalist, populist və avtoritar bir sistemdir.

### Almaniyada yaradılmış erməni legionu

Ermənilərin əsas şüarı Garegin Njdenin “Almaniya üçün ölən Ermənistan üçün də ölür” deyimi idi. Ermənilər Adolf Hitleri çox sevirlər. İmkanları olsaydı ona da İrəvanda heykəl də qoyardılar. Onlar Hitlerə aid etdikləri bir ifadəni də işlətməyi də çox sevirlər. Guya, Hitler yəhudiləri qırmağı qərarlaşdırarkən demişdir ki, “… Türklər Birinci dünya nüharibəsi dövründə erməniləri məhv etdilər, onlara nə edildi ki, bizə də nəsə edilsin.” Bu, bir erməni yalanıdır, işlərinə yaradığına görə bu ifadəni uydurublar Dünyanın müxtəlif ölkələrinə göndərdikləri və müxtəlif üsullarla qondarma “Erməni soyqırımı” nın qəbul edilməsinə nail olduqları (artıq belə ölkələrin sayı 31-dir) qanun təkliflərində Hitlerin bu fikri mütləq yer alır. Faşizmə belə heyranlıq bu gün də erməni cəmiyyətinə Hitlerə simpatiya ruhu gətirir və hətta bu fikri söylədiyinə görə “bəlkə Hitler də erməniymiş” deyənlər də tapılır. Ermənilərə görə Nuh (ə.) da ermənidir. Nuh Peyğəmbərlə əlaqədar “Dünya tufanından” danışarkən ermənilər onu öz tarixləri kimi verməyə başlayıblar. Bəzilərinin əsərlərində göstərilir ki, Nuh gəmisindən qurunu görərkən erməncə “yerevats”–“göründü ” demişdir. Buna yalnız gülmək olar. Nuhla əlaqədar “Ümumdünya tufanı” haqqında əfsanəni kim bilmir?! Hətta az savadlı adamlar da “Bibliyanın” “Əsari ətiq” hissəsinin “Varlıq” bölməsini oxuyublar. Orada bu barədə geniş yazılıb Məlumdur ki, bu tufan haqqında məlumat təkcə əfsanə deyil. Bu fəlakət haqqında mixi yazı mənbələrində də məlumatlara rast gəlinir. Oxucularımızın bir çoxunun yəqin yadında qalıb, Hrant Matevosyan 70- 80-ci illərdə Azərbaycanda ən çox oxunan erməni yazarlarından idi. İnsafən keçmiş SSRİ- də də onu yaxşı tanıyırdılar. Onun “Aniv”( Çarx) jurnalında bir fikrinə rast gəldim. Öncə bu fikrin tərcüməsini olduğu kimi verirəm:



“Ermənistan vətəndaşı üçün ən böyük ziyan – imperiya insanı statusunu itirməsi oldu. İmperiyanı müdafiə etməyin itirilməsi, sözün ən yaxşı mənasında, məhz imperiyanın mənasının itirilməsidir. Bunun daşıyıcısı isə həmişə Rusiya olmuşdur. İmperiya insanı olmağı biz itirmiş olduq.

Böyük insanı, hər şeyə qadir insanı, özünütəsdiq etmiş insanı itirdik. Bu insanı “çar uşağı” da adlandıra bilərsiniz, “Moskva uşağı” da, “imperiya uşağı” da... Mən cəsarətlə deyə bilərəm ki, ötən əsrin 70-ci illərindən başlayaraq bu günə qədər ermənilər hər zaman daha yüksək mövqe tutmuşdular, daha qüdrətli idilər. Bəlkə də bu paradoksal görünə bilər, deyim ki, daha azad ermənilərdi, onlar bizi imperiya boyunduruğundan cəsarətlə xilas etdilər.”

Yazıçı Hrant Matevosyanı müasir erməni irqçilər heç sevmirdilər. Ona görə ki, Matevosyan gerçəkləri bütün çılpaqlığı ilə söyləyən tək-tük ermənilərdən idi. “Aniv” jurnalından götürdüyümüz və olduğu kimi verdiyimiz bu sitatda erməniliyin iç üzü açılır. Matevosyan deyir ki, “...fərd və millət olaraq erməni tarixin bütün zamanlarında yalnız kiminsə kölgəsində olarkən bir şey ifadə edə bilmişdir. Erməni Sovetlər Birliyinin qanadı altında, xəzinədən yararlanaraq dövlətdən dotasiya ala-ala, onu-bunu aldada – aldada baş girləyən toplumlardan biri idi və insan olaraq isə Rusyanın hər yerində şəstlə, qürurla gəzirdi. Deyərdin ki, sanki elə bu imperiyanın sahibi ermənilərdir”. Matevosyan deyir ki, gerçəkdən də belə idi, “o, əlində hər şey olan imperiya insanı idi”, bundan istənilən zamanda və istənilən ölçüdə yararlana bilirdi.

Matevosyan soruşur: “Bəs indi kimdir erməni? Müstəqil Ermənistan vətəndaşı olan erməni bir şey ifadə edirmi? Əvvəlki sərbəstliyi varmı?” Sonra da öz suallarına özü cavab verir: “Bir var İmperiya balası olasan, bir də var kiminsə “forpost” hesab elədiyi müşahidə məntəqəsinin gözətçisi...” Fərq budur. O, Ermənistan vətəndaşı üçün "Rusiya həmişə vardır və bizi qoruyacaq " kimi bir qənaətdən də uzaqda tutur özünü... Nədən? Çünki bir zamanlar bu xalqı qoruyub günümüzə qədər gətirən Selcuklular, Osmanlı imperiyaları olmuşdur və ağıllı adamlar da bilirlər ki, (Matevosyan da bunu bilməmiş deyildi) sonda ermənilər bu imperiyalara xəyanət etmişlər. Bu gün sırada Rusiyadır və gələcəkdə digər imperiyalar olacaq bu xəyanətin obyekti? Ermənistanda artıq o fikir vardır ki, Rusiya dövrü bitmişdir, daha yaxşı “kirvə” Amerika ola bilər. Fransa da cəlbedicidir, və artıq bəllidir ki, bu xəyanəti ruslar da yaşayacaqlar. Bir zamanlar romalılar, sonra Bizanslar, sonra Osmanlılar üçün olanlar olacaq. Çünki bu millət heç vaxt imperiya insanı ola bilməyib. Neçə əsrlər boyu özünəxas yaşam tərzinə malik millətləri, tarixi min illərlə ölçülən insanları qiymətləndirmək ola bilər ki, bir qədər məntiqsizdir, amma erməniləri artıq tanıyırıq.

Və digər erməni yazar , hazırda mühacirət həyatı yaşayan Vahe Avetyanın təsbiti:

– Siz nasistsinizmi?

– Əlbəttə. Çünki mən Ermənistanda doğuldum, orada böyüdüm, məni ermənilər tərbiyə etdilər. Başqa nə cür ola bilər ki?

Ona görə də mən nasistləri, faşistləri və digər gədaları dərhal, anında tanıyıram.

**(ardı var)**

***Qafar ÇAXMAQLI,***
***“XQ”nin Türkiyə müxbiri***

# Ölkəmizdə özəl bölmə böyüyür, müasirləşir



(əvvəli 1-ci səhifədə)

Bununla belə, yeni çağırışlara uyğun olaraq hazırda hökumət tərəfindən sahibkarlarla qeyri-neft sənayesindəki inkişafı davam etdirmək, istehsal və ixracı artırmaq barədə fikir mübadiləsi aparılır. İş adamları ilə xammalın keyfiyyəti, investisiya təşviqi, bank-maliyyə hesablaşmaları, daxili bazarın qorunması, kommunal xidmətlərdə differensial tariflər, dövlət satınalmaları, kredit resurslarına çıxış, ixtisaslı kadr potensialı kimi məsələlər müzakirə edilir. Sahibkarların təklifləri əsasında dövlətin dəstək və təşviq alətlərinin daha da təkmilləşdirilərək sistemli şəkildə davam etdiriləcəyi, sahibkarlığın bundan sonra da dəstəklənəcəyi diqqətə çatdırılır.

Xatırladaq ki, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan sosial-iqtisadi inkişaf strategiyasının nəticəsi olaraq ölkəmizdə bütün sahələr inkişaf edib, o cümlədən özəl sektor güclənib, qeyri-neft sənayesi üzrə dövriyyə, istehsal və ixrac həcmi, yeni iş yerləri və digər iqtisadi göstəricilər əhəmiyyətli dərəcədə artıb.

Qeyri-neft sektorunun rəqabətədavamlı inkişafı, yeni istehsal sahələrinin stimullaşdırılması və ixrac qabiliyyətinin yüksəldilməsi ölkə iqtisadiyyatının prioritet hədəflərinə çevrilib. Əlverişli biznes mühitinin inkişafı və investisiya imkanlarının genişləndirilməsi məqsədilə tətbiq edilən vergi və gömrük islahatlarının, daxildə emala xüsusi gömrük prosedurunun, sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsi üzrə dövlət dəstəyi mexanizmlərinin və digər alətlərin diqqət mərkəzində saxlanılmasına xüsusi üstünlük verilib.

İqtisadiyyat Nazirliyi tərəfindən iş adamlarının fəaliyyətinə həssaslıqla yanaşılır, onların qarşılaşdıqları problemlərin həllinə operativ reaksiya verilir. Bundan başqa sahibkarların vergi və gömrük güzəştləri, güzəştli kredit, nəqliyyat-logistika, xammala çıxış imkanlarının və ixrac potensialının genişləndirilməsi, standartlaşdırma, mənşə sertifikatının verilməsi, satınalma, torpaqların təyinatının dəyişdirilməsi, yeni bazarlarla əlaqələrin qurulması, yerli istehsalın artımı ilə bağlı təkliflərinə də həssaslıqla yanaşılır.

Həyata keçirilən tədbirlər nəticəsində qeyri-neft sənayesi davamlı inkişaf edir. Mövcud sahənin tərəqqisində səmərəli fəaliyyət göstərən sənaye zonaları və aqroparklar istehsalın artırılması, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından əlverişli mexanizmdir.

Yeri gəlmişkən, 2015-ci ildən 2024-cü ilin I yarımili ərizndə sənaye zonalarında 13,5 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun da 4,4 milyard manatlıq hissəsi dünyanın 70-dən artıq ölkəsinə ixrac edilib.

Sənaye zonalarına sahibkarların cəlb edilməsi, investisiyaların yatırılması və yeni iş yerlərinin yaradılması istiqamətlərində müsbət addımlar atılır. 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 8,04 milyard manat olan 151 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,8 milyard manatdan çox investisiya yatırılıb və 10500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manata yaxın investisiyanın yatırılması və 7100-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Respublikada aqroparkların fəaliyyəti də səmərəliliyi ilə diqqət çəkir. Bu, Yevlax Pilot Aqroparkın timsalında aydın nəzərə çarpır. İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, aqroparkın rezidenti "ISFA" MMC tərəfindən 20 hektar ərazidə meyvə bağı salınıb. Layihəyə 310 min manat investisiya qoyulub, 480 ton məhsul istehsalı proqnozlaşdırılıb. Bundan əlavə rezidentə məxsus 6 hektar sahədə tingçilik təsərrüfatı yaradılıb. Layihə çərçivəsində 1,1 milyon manat investisiya qoyulub, ilin sonunda ixrac üçün 800 min ədəd tingin əldə olunması planlaşdırılıb.

Yevlax Pilot Aqroparkında yerləşən "Azerbaijan Company for Poultry Development" MMC-nin illik istehsal gücü isə 20 milyon ədəd damazlıq yumurta təşkil edir. Layihənin reallaşdırılması ilə 27,1 milyon manat investisiyanın qoyulması və 32 daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, ümumi ərazisi 2807 hektar olan Yevlax Pilot Aqroparkı ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan ilk aqroparkdır. Burada intensiv meyvə bağlarının salınması, heyvandarlıq və quşçuluq təsərrüfatlarının, həmçinin emal sahələrinin yaradılması nəzərdə tutulub.

Aqroparkda dövlət tərəfindən 815 hektar ərazinin su və elektrik təchizatı tam təmin olunub, təsərrüfatdaxili yollar çəkilib, 370 hektar sahədə infrastrukturun qurulması üzrə işlər davam etdirilir.

Aqropark üzrə 1939 hektar sahədə 33 sahibkarlıq subyekti rezident kimi qeydiyyata alınıb. Rezidentlər tərəfindən, ümumilikdə, 52 milyon manatadək özəl investisiyanın yatırılması ilə 305 nəfər üçün daimi iş yerinin yaradılması nəzərdə tutulub. Bugünədək rezidentlər tərəfindən 29 milyon manat investisiya qoyulmaqla 92 daimi, 190 mövsümi iş yeri açılıb, 19 rezident tərəfindən 991 hektar ərazidə əkin işləri aparılıb, 409 hektar sahədə meyvə bağları salınıb.

Sonda bir məsələni də qeyd etmək istərdik. Son illər ərzində ölkəmizdə iş adamlarına startaplar və innovasiyalar üçün əlverişli mühit yaradılıb. Dünya İqtisadi Forumunun "IDEA: Azərbaycanın rəqəmsal iqtisadiyyatına sərmayə qoyuluşu" adlı hesabatında startaplar və innovasiyalar üçün əlverişli mühitin yaradılmasında ölkəmizin nəzərəçarpacaq irəliləyiş əldə etdiyi bildirilib.

Hesabata görə, irəliləyiş biznesin inkişafına dəstək və innovasiyaların təşviqinə yönəlmiş çoxsaylı institutların və proqramların yaradılması, məsələn, texnoparkların və biznes inkubatorların inkişafı ilə özünü göstərir.

Hesabatda vurğulanır ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq fərmanına uyğun olaraq bu sahədə əlaqələndirməni və inkişafı təmin etmək məqsədilə İqtisadiyyat Nazirliyi "İnnovasiya fəaliyyəti haqqında" qanun layihəsi hazırlayır.

Bu gün respublikada rəqəmsal iqtisadiyyat sosial-iqtisadi inkişaf məqsədlərinin tərkib hissəsi kimi qəbul edilir. Sənəddə bununla bağlı bildirilir ki, iqtisadiyyatın şaxələndirilməsi və hasilat sənayesindən asılılığın azaldılması üzrə milli baxışa uyğun olaraq, ölkəmiz rəqəmsal inkişafın təşviqində, habelə qlobal rəqabət qabiliyyətinin artırılmasında birbaşa xarici investisiyaların mühüm rolunu yüksək dəyərləndirir. Azərbaycan hökuməti 2022–2026-cı illər üçün hərtərəfli Sosial-İqtisadi İnkişaf Strategiyası vasitəsilə xarici investisiyaların cəlb edilməsinə, islahatların həyata keçirilməsinə və özəl sektorun stimullaşdırılmasına mühüm diqqət yetirir.

Ölkəmizdə iş adamlarına startaplar və innovasiyalar üçün əlverişli mühit yaradılmasının nəticəsidir ki, indiyədək 161 kiçik və orta biznes subyektinə "Startap" şəhadətnaməsi verilib. Bununla da onlar innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad ediliblər.

# Yeni nəqliyyat standartları

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTANDART) nəqliyyat sahəsi üzrə yeni dövlət standartları qəbul edib.**




Qurumdan redaksiyamıza daxil olan məlumata görə, AZSTANDART tərəfindən beynəlxalq təcrübə və yerli tələblər nəzərə alınaraq hazırlanmış yeni dövlət standartlarının tətbiqi yol infrastrukturunun davamlı və effektiv idarə olunmasına, eləcə də şəhər daxilində təhlükəsiz, eləcə də nizamlı hərəkət mühitinin formalaşmasına şərait yaradacaq.

**Həyəcan təbili**

# Sünbülqıranların Kürdəmir "yürüş"ü

**Redaksiyamızın qaynar xəttinə daxil olan məlumata görə, Kürdəmir rayonunda təsərrüfatlar gəmiricilərin hücumuna məruz qalıb. El arasında "sünbülqıran" kimi tanınan boz siçan Kürdəmirin Qarasaqqal kəndindəki əkin sahələrini viran qoyub. Sürətlə çoxalan zərərvericilərə artıq rayonun bütün kəndlərində rast gəlmək mümkündür.**



Fermer Rövlan Ələkbərov həyəcan təbili çalaraq bildirir ki, dövlət qurumları vaxtında lazımi tədbirlər görməsə, təsərrüfata çəkilən zəhmət hədər gedəcək. Onun sözlərinə görə, sahələrin yarıdan çoxunu əkən kəndlilərin məhsulunun bir hissəsi artıq məhv olub: "Respublika səviyyəsində fövqəladə vəziyyət yaranıb. Sahələrimizin hər kvadratmetrində sünbülqıranların 5-6 yuvası var. Vəziyyət böhranlı hal alıb. Təkcə mənim 30 tona yaxın məhsulumu 2 gecədə sünbülqıranlar dağıdıb. Fəlakətin miqyası gün keçdikcə artmaqda davam edir. Ötən ildən qalan məhsullardan əlavə, hazırda yemiş sahələrini, nar ağaclarını, üzüm tinglərini zərərvericilər dağıdırlar. Tərəvəz, bostan məhsullarını, hətta tut ağaclarının yarpaqlarını belə yeyirlər. Durum acınacaqlıdır.

Oktyabr ayında əkinə başlamalıyıq, indiki vəziyyətdə isə bu, qeyri-mümkün görünür. Ötənilki məhsula görə yox, gələcək üçün təşvişə düşmüşük. Vəziyyət elə ağırdır ki, 1 sot torpaqda belə əkin apara bilməyəcəyik".

Fermer daha sonra deyir ki, gəmiricilərin qarşısını almaq çox çətindir və yalnız bir neçə fermerin bu halla mübarizəsi heç bir müsbət nəticə vermir.

"Bir cüt sünbülqıranın zaman keçdikcə nə qədər bala verəcəyini düşünəndə vəziyyət daha da vahiməli görünür. Biz fermerlər dövlət səviyyəsində yardım istəyirik. Vəziyyətimiz acınacaqlıdır. Bu, artıq bizim həll edə biləcəyimiz iş deyil. Fermerlərin tək-tək bu ziyanvericilərin kökünü kəsməsi real görünmür. Mən öz sahəmi dərmanlasam da, qonşu sahələrdən yenə gələcəklər".

Rövlan Ələkbərovun sözlərinə görə, dövlət qurumları məsələyə müdaxilə edib mütləq genişmiqyaslı tədbir görməlidir. Sünbülqıranlar çəyirtkə, sovka, qurd və digər həşəratlar kimi deyil, yerin altında olurlar. Həşəratların qarşısını almaq üçün sahəyə dərman səpmək olur, amma sünbülqıranların kökünü kəsmək üçün gərək bir-bir yuvalarının ağzına çay qaşığı ilə zəhərli buğda səpəsən. Bunu etmək üçün minlərlə işçiyə ehtiyac var. Gəmiriciləri məhv etmək üçün rayona xüsusi dərman perapatları gətirilməli, fermerlərə paylanılmalıdır.

# Dövlət əmlakı icarəsindən 18 milyon manat gəlir

**Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatında bildirilir ki, cari ilin yanvar–iyun ayları ərzində dövlət əmlakının icarəsindən büdcəyə 17,8 milyon manat vəsaitin ödənilməsi təmin olunub. Qeyd edilib ki, bu dövrdə qeyri-yaşayış sahəsinə dair 308 yeni icarə müqaviləsi bağlanılıb və dövlət büdcəsinə 3,3 milyon manat vəsaitin ödənilməsi reallaşdırılıb. Eyni zamanda, ilk 6 ayda 1518 torpaq sahəsinə dair yeni icarə müqaviləsi bağlanılıb. Hesabat dövründə torpaq sahələrinin icarəsindən dövlət büdcəsinə 14,5 milyon manat məbləğində vəsait ödənilib.**

Ümumilikdə isə qeyri-yaşayış və torpaq sahələrinin icarəyə verilməsi ilə bağlı 2024-cü ilin birinci yarımilliyi ərzində 1826 yeni icarə müqaviləsi bağlanılıb. Ötən ilin eyni dövrü ilə müqayisədə bağlanan icarə müqaviləsinin sayı 4,88 faiz artıb.

Hesabat dövründə daşınmaz dövlət əmlakının icarəsindən dövlət büdcəsinə 17,8 milyon manat məbləğində vəsaitin ödənilməsi təmin olunub. 2023-cü ilin eyni dövrü ilə müqayisədə 10,1 faiz artım qeydə alınıb.






# "Xanbulaq" "Araz Vadisi"ndə

**"Xanbulaq" MMC-yə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti statusu verilib. İqtisadiyyat Nazirliyindən bildirilib ki, bununla da "Araz Vadisi İqtisadi Zonası" rezidentlərinin sayı 12-yə çatıb. Şirkət tərəfindən bu sənaye parkının 2,5 hektar ərazisində 40 otaqlı otelin və 100 nəfərlik restoranın tikintisi nəzərdə tutulu.**

İnvestisiya dəyəri 7 milyon manat olan layihə çərçivəsində 60 nəfərin işlə təmin edilməsi planlaşdırılıb.

# ABŞ ilə ticarət 73 faiz artıb

**Bu ilin ilk yarımilində Azərbaycanla Amerika Birləşmiş Ştatları (ABŞ) arasında ticarət dövriyyəsi 436 milyon 484 min ABŞ dolları təşkil edib. Dövlət Gömrük Komitəsinin hesabatına görə, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 73 faiz və ya 184 milyon 187 min ABŞ dolları artıb.**



Hesabat dövründə Azərbaycandan ABŞ-yə qeyri-neft məhsulları ixracı 31,8 dəfə artaraq 164 milyon 482 min dollara, ABŞ-dən Azərbaycana ixrac isə 10 faiz artaraq 272 milyon dollara bərabər olub.

Hesabat dövründə Azərbaycandan ABŞ-yə əsasən, qara kürü, mineral və ya kimyəvi azot gübrələri, tərkibində silisium olan ferrosilisium ərintiləri, alüminiumdan çubuqlar, profillər, qapılar, pəncərələr, alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, mebellər və digər məhsullar ixrac edilib. Qeyd edək ki, ilin ilk yarımilində iki ölkə arasında ticarət dövriyyəsi respublikamızın ümumi ticarət dövriyyəsinin 2 faizinə bərabər olub.

Xatırladaq ki, cari ilin I yarısında Azərbaycanın ticarət dövriyyəsi 21 milyard 768,2 milyon ABŞ dolları, qeyri-neft ixracı isə 1 milyard 596 milyon ABŞ dolları təşkil edib.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycana “yaşıl” dəstəyini artırır




**(əvvəli 1-ci səhifədə)**

Yol Xəritəsində dəniz külək energetikası potensialının istifadəsi məqsədilə tədbirlər də təqdim edilir. Həmin tədbirlərin sırasına 2030-cu və 2036-cı illər üçün 200 meqavat gücündə pilot layihəsinin, sonra isə bu qəbildən olan daha iri təşəbbüslərin işlənib hazırlanması və rəqabətli müsabiqə şəraitində tikilməsi, istifadəyə verilməsi, dəniz küləyi üçün yeni perspektivli sahələrin kəşf edilməsi, infrastrukturun modernləşdirilməsi, habelə dəniz külək energetikası sahəsində davamlı layihələrin ardıcıllığını gerçəkləşdirmək üçün dövlət qurumlarında müvafiq bilik və bacarıqların artırılması daxildir.

“Azərbaycanda dənizdə külək enerjisindən istifadənin inkişafı üzrə Yol Xəritəsi” coğrafi məkan xəritələrinin tərtib olunması, zonaların müəyyənləşdirilməsi, iqtisadi, maliyyə, ekoloji və sosial aspektlərdə təhlillərin aparılması, təsirlərin qiymətləndirilməsi, icazə və razılıqların verilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi, ötürücü şəbəkənin yenidən qurulması, eləcə də təchizat zəncirinin öyrənilməsi kimi məsələləri də əhatə edir.

İlkin təhlillərə əsasən, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində külək enerjisinin ümumi texniki potensialı 157 QVt (dayazsulu hövzələrdə 35 QVt və dərinsulu hövzələrdə 122 QVt) səviyyəsində qiymətləndirilib. Layihə çərçivəsində, eyni zamanda, dənizdə müvafiq layihələrlə bağlı investorların cəlbi, özəl sektorla tərəfdaşlığın müəyyənləşdirilməsi, yardımçı investisiyaların həyata keçirilməsi kimi dəstəklər nəzərdə tutulub. Dənizdə mövcud olan bu potensialdan səmərəli istifadə yeni iş yerləri, həmçinin ölkə iqtisadiyyatına əlavə dəyər qazandıran imkanlar yaradacaqdır.

Yol Xəritəsində, eyni zamanda, ölkəmizdə 2050-ci ilədək karbon emissiyalarının 40 faizədək azaldılması qarşıya əsas vəzifə kimi qoyulur. Bununla da IFC həyata keçirilən və planlaşdırılan bərpaolunan enerji layihələrinin respublikamızın qlobal enerji keçidi prosesinə milli səviyyədə töhfəsini gerçəkləşdirir.

Beləliklə, IFC ölkəmizlə dənizdə külək enerjisindən istifadə üzrə Yol Xəritəsi çərçivəsində, eləcə də “Azərbaycan üçün Çevik Texniki Yardım Proqramının (AZTAF) enerji səmərəliliyi komponenti üzrə məsləhətçi xidmətlərinin göstərilməsi”, “Azərbaycanın enerji sistemində bərpaolunan enerji güclərinin genişləndirməsinə dəstək” layihələri üzrə əməkdaşlıq edir. Eyni zamanda, 1862 MVt gücündə bərpaolunan enerji stansiyalarının şəbəkəyə inteqrasiyası məqsədilə elektrik enerjisi sisteminin gücləndirilməsi ilə bağlı Dövlət Proqramı hazırlanmasında səmərəli fəaliyyət göstərir.

Azərbaycanın bərpaolunan enerji layihələrinin icrası IFC tərəfindən daim dəstəklənib. Energetika Nazirliyi ilə bu korporasiya arasında respublikamızda dənizdə külək enerjisi resursundan istifadə üzrə əməkdaşlığa dair 2021-ci il aprelin 14-də Anlaşma Memorandumu imzalanıb. Sənəddə ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin təşviqi, həmçinin energetika sektorunun maliyyə davamlılığı və səmərəliliyinin artırılması üçün bu sahədə özəl sektorun iştirakının dəstəklənməsi kimi ümumi məqsədlərin reallaşdırılması nəzərdə tutulub.

Memoranduma əsasən, IFC ilə əməkdaşlıq Azərbaycanda dənizdə külək enerjisi potensialının qiymətləndirilməsini və Yol Xəritəsinin işlənib hazırlanmasını, növbəti mərhələdə isə dənizdə müvafiq layihələrlə bağlı tenderlərin təşkili, özəl sektorla tərəfdaşlığın müəyyənləşdirilməsi, yardımçı investisiyaların həyata keçirilməsi kimi dəstəklər önə çəkilir.

Bütün bu təşəbbüslərin gerçəkləşdirilməsinin nəticəsidir ki, son illər ərzində təkcə neft-qaz sektorunda deyil, həmçinin bərpaolunan enerji sahəsində də nəzərəçarpacaq uğurlar əldə edilir. Bunun bir səbəbi vurğulandığı kimi, Azərbaycanın bu istiqamətdə beynəlxalq maliyyə institutları ilə sıx əməkdaşlığı ilə bağlıdırsa, digər səbəbi ölkəmizin zəngin bərpaolunan enerji potensialına malik olması ilə əlaqədardır.

Xatırladaq ki, respublikamızın Xəzər dənizində təsdiqlənmiş 157 QV, quruda isə 135 QV külək enerjisi potensialı, ümumilikdə, 290 QV-dan çox bərpaolunan enerji ehtiyatı var. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları da alternativ və bərpaolunan enerji mənbələri ilə diqqət çəkir. Təsadüfi deyil ki, dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərlə bağlı müəyyənləşdirdiyi iqtisadi inkişaf kursunda həmin iqtisadi ərazilər “yaşıl enerji” zonasına çevriləcək əsas istiqamətlərdən biri hesab olunur.

Prezident İlham Əliyev çıxışlarının birində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında alternativ və bərpaolunan enerji mənbələri ilə bağlı deyib: “İstər hidro, istər külək enerjisi sahəsində həm Gürcüstanda, həm də Azərbaycanda, o cümlədən Qarabağda böyük potensial var. Artıq dediyim kimi, biz 25 qiqavat enerjini istehsal etmək məqsədilə bərpaolunan enerji sahəsində məşhur olan bir neçə əsas beynəlxalq şirkətlə müqavilə və anlaşma memorandumları imzalamışıq. Onun təxminən 500 meqavatı üçün artıq tikinti işləri gedir. 230 meqavatlıq güclərin açılışını biz bir neçə ay ərzində planlaşdırırıq. 700 meqavatdan artıq günəş və külək enerjisini biz ola bilsin, maksimum 2025-ci ilə qədər təmin edəcəyik. Qalan güclərin yaradılması plandadır. Bir sözlə, gələcəyimizin böyük üfüqləri var və biz hər zaman bir yerdə olmalıyıq”.

***V B AYRAMOV***
***XQ***

# COP29: sağlam mühit və şəffaflıq platforması

**Energetika nazirinin müavini, COP29-un icraçı direktoru Elnur Soltanov İspaniyanın aparıcı “EFE”agentliyinə müsahibəsində COP29-un Azərbaycanın səyi ilə inklüzivlik və şəffaflıq platformasına çevriləcəyini diqqətə çatdıraraq respublikamızın adıçəkilən sammitdə iqlim dəyişikliyinin qarşısını almaq təşəbbüsləri ilə bağlı İkiillik Şəffaflıq Hesabatını (BTR) və Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri (NDC) təqdim edəcəyini vurğulayıb. COP29-un icraçı direktoru daha sonra Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə şəffaf və inklüziv tədbirlərə üstünlük verdiyini bildirib.**



E.Soltanov, həmçinin qeyd edib ki, Azərbaycanın COP29-a sədrliyinin əsas məqsədi iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin maliyyələşdirilməsi üçün bütün tərəflərin ehtiyaclarına cavab verən aydın və iddialı “Yeni Kollektiv Kəmiyyət Məqsədi” (NCQG) formalaşdırmaqdır. “NCQG 2015-ci ildə razılaşdırılıb, lakin iqlim dəyişikliyi ilə mübarizə səylərində dünyanın ən yoxsul ölkələrinə dəstək olmaq məqsədilə 2025-ci ilə qədər yenilənir”.

COP29-un icraçı direktoru müsahibədə iqlim dəyişikliyi üzrə Paris Sazişinin bütün istiqamətləri üzrə kollektiv irəliləməyin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, fikir ayrılıqlarını aradan qaldırmaq üçün “siyasi istiqamət” axtarışının aparılmasına başlanılıb.

E.Soltanov qeyd edib ki, İqlim Dəyişikliyi üzrə Hökumətlərarası ekspertlər qrupu (IPCC) temperatur və sıfır karbon emissiyaları ilə bağlı hesablamalarında karbohidrogenlərin dünya iqtisadiyyatındakı rolunu tanıyır. COP29-a optimist yanaşan iqlim konfransının icraçı direktoru bunu qlobal əməkdaşlıq və iqlim üzrə fəaliyyət üçün “lakmus kağızı” olaraq görür: “Azərbaycan tərəfləri bir araya gətirmək üçün səylərini əsirgəməyəcək. Konvensiyaya və Paris Sazişinə uyğun olaraq, COP29-a inklüzivlik və şəffaflıq şəraitində evsahibliyi etməyə sadiqik. COP29-a dair görüşlərimiz vədləri yerinə yetirmək və temperaturu 1,5°C çərçivəsində saxlamaq üçün nəticələrə nail olmaqdır”.

***XQ***

# SOCAR “Neft Qaz Metan Tərəfdaşlığı”na qoşulub

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) qlobal miqyasda metan emissiyalarının azaldılması sahəsində ciddi niyyətini və bu istiqamətdə elan etdiyi dekarbonizasiya hədəflərinə sadiqliyini nümayiş etdirərək, “Neft Qaz Metan Tərəfdaşlığı”na (OGMP 2.0) qoşulub.**

SOCAR-dan verilən məlumata görə, bu tərəfdaşlığa qoşulmaqla SOCAR qlobal enerji sektorunda ətraf mühitin qorunması istiqamətində ən yaxşı təcrübələrin qazanılması, tətbiq olunması, habelə metan emissiyalarına dair daha ətraflı və beynəlxalq standartların tələblərinə uyğun hesabatvermə imkanı əldə edib.

“Neft Qaz Metan Tərəfdaşlığı”na qoşulma SOCAR-ın qlobal iqlim dəyişikliklərinə qarşı mübarizəyə verdiyi töhfənin bir hissəsi olmaqla, şirkətin uzunmüddətli dayanıqlı inkişaf strategiyasının məqsədlərinə xidmət edir.

***XQ***

# Tullantı təkrar xammal və enerji mənbəyidir

**Müxtəlif tipli tullantılar bir yerə atıldıqda zibil kütləsi əmələ gəlir ki, bu da ətraf mühitin çirklənməsinə və əhalinin sağlam yaşam tərzinə çox mənfi təsir göstərir. Bunun qarşısını almaq üçün istehsal müəssisələrində aztullantılı qabaqcıl texnologiyalardan istifadə edilir, tullantıların idarə edilməsi və təkrar emalı prosesi həyata keçirilir. Bu proses “yaşıl təchizat” zənciri sisteminə daxil olan əsas mərhələlərdən biridir. Bu barədə AMEA Coğrafiya İnstitutunun elmi işçisi, ekoloq Firuzə Ağayeva söhbət zamanı dedi:**

– Əhalinin sağlamlığının və ətraf mühitin ekoloji tarazlığının qorunması, tullantıların idarə olunması sahəsində fəaliyyət göstərən müəssisələrin yaradılması, bu məqsədlə dövlət və özəl qurumların, habelə xarici investorların vəsaitlərinin cəlb edilməsi dövlət siyasətində prioritet istiqamətlərdən biridir.

Tullantı materiallarının ekosistemlərə və insanların rifahına mənfi təsirlərini minimuma endirmək üçün bu sahədə nəzarət gücləndirilməli, tullantılardan təkrar emal yolu ilə elektrik enerjisi əldə olunması diqqətdə saxlanılmalıdır. Hazırda tullantıların yandırılması 2012-ci ildən fəaliyyətə başlayan Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda həyata keçirilir.

Müəssisə dördüncü nəsil (4G) texnologiyaların tətbiqi ilə Avropa İttifaqının ətraf mühitin mühafizəsi sahəsində ən sərt standartlarına tam uyğun şəkildə qurulub. Zavod atmosferə zərərli maddə atmır, tullantılar xüsusi vasitələrlə tam zərərsizləşdirilir. İllik gücü isə 500 min ton məişət və 10 min ton tibbi tullantının yandırılmasıdlr.

Ölkədə 2023-cü ildə 4 milyon 86 min 100 ton tullantı əmələ gəlib və onların 66,6 faizini bərk məişət tullantıları, 33,4 faizini isə müəssisələrin istehsal fəaliyyəti nəticəsində yaranmış müxtəlif növ tullantılar təşkil edib. 2 milyon 719 min 600 ton bərk məişət tullantılarının 79,4 faizi zərərsizləşdirilməsi məqsədilə poliqonlara daşınıb, 19,5 faizi enerji əldə edilməsi məqsədilə istifadə olunub. Məişət tullantılarından istifadə hesabına 223 milyon kVt-saat elektrik enerjisi istehsal edilib. 2024-cü ilin 6 ayında isə Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda 135 miıyom kVt-saat elektrik enerjisi istehsal olunub.

İstehsal olunmuş elektrik enerjisinin bir hissəsi zavodun ehtiyaclarının ödənilməsinə yönəldilir, qalan hissəsi isə yüksək gərginlikli xətlər vasitəsilə Bakı şəhərinin ümumi şəbəkəsinə ötürülür. Bu da 100 min ev təsərrüfatını elektrik enerjisi ilə təmin etməyə imkan yaradır.

Ölkəmizdə zərərli məhsulların toplanması, çeşidlənməsi, utilizasiyası və təkrar emalı sahələri daim diqqət mərkəzindədir. Onlar üçün pasport tərtib edilir. Bu pasportda təhlükəli tullantıların təhlükəlilik dərəcələrinin qiymətləndirilməsi əsasında tərkibi və xüsusiyyətləri barədə məlumatlar olur. Nəqliyyat vasitəsinə yükləndiyi andan onu qəbul edən hüquqi və fiziki şəxsə çatdırılana qədər tullantının daşınmasını həyata keçirənlər ətraf mühitin və insanların sağlamlığının təhlükəsizliyinə görə məsuliyyət daşıyırlar.

Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodunun illik fəaliyyət gücü 200 min tondur. Müəssisə qabaqcıl alman texnologiyaları əsasında qurulub. Çeşidləmənin aparılması nəticəsində təkrar emal üçün yararlı olan kağız, şüşə, plastik, əlvan metal, dəmir və digər xammallar ayrılır ki, bunun nəticəsində tullantıların ümumi həcmi azalır, ucuz xammal bazarı formalaşır, ölkədə təkrar emal qurulması üçün zəmin yaranır. Bu zaman həm də enerjiyə qənaət olunur və ən önəmlisi – tullantıların ətraf mühitə mənfi təsiri azalır. Məişətdə əmələ gələn batareya və akkumulyator kimi təhlükəli tullantılar, o cümlədən bu qəbildən olan elektron tullantılar ümumi kütlədən ayrılaraq düzgün utilizasiya məqsədi ilə aidiyyatı yerlərə göndərilir.



Ötən il müəssisələrin istehsal fəaliyyəti nəticəsində 232 min 900 ton təhlükəli tullantı üzə çıxıb. Onların da 67,4 faizi mədənçıxarma sənayesi müəssisələrində yaranıb və böyük hissəsi Bakı şəhərində yerləşən müəssisələrin payına düşüb. Əvvəlki illərdə yaranan qalıqlar da daxil olmaqla, 2023-cü ildə 60,1 min ton təhlükəli tullantı tamamilə zərərsizləşdirilib.

Zərərli tulantılar arasında elektron tullantılar da var. Bura elektrik və elektron cihazlar: televizor, kompüter, telefon, fax, ekranlar, tibbi cihazlar və s. aiddir. Onlar parçalandığı və yandırıldığı zaman təhlükəlidir. Bu zaman atmosferə kadmiyum və civə yayılır ki, bu da təkcə insan sağlamlığı üçün deyil, bütün canlılar, ətraf mühit üçün zərərlidir. Təhlükənin qarşısını almaq üçün “Sumqayıt Kimya Sənaye Parkı”nda istifadə müddəti bitmiş batareyaların və akkumulyatorların utilizasiyasını həyata keçirən “Azmonbat” MMC fəaliyyət göstərir. Müəssisədə utilizasiya nəticəsində polipropilen, polietilen, qurğuşun lövhə, qurğuşunlu aktiv kütlə və ammonium sulfat məhlulu əldə edilir. Ammonium sulfat gübrə kimi istifadə olunur. Yeni akkumulyatorun yığılıb-satılması, xammalın özünün istehsalı həyata keçirilir.

Tibbi tullantılar da həm ətraf mühit, həm də insan sağlamlığı üçün təhlükəlidir. Elə tibbi tullantılar var ki, utilizasiya (zərərsizləşdirmək) olunmamış torpağa basdırıldıqda yüz illərlə çürümür və beləliklə, yeraltı su hövzələrinə qarışıb yoluxucu xəstəliklər yayır. Onların utilizasiyası Bakı Bərk Məişət Tullantılarının Yandırılması zavodunda həyata keçirilir. Bu zaman tullantılar utilizasiya sahəsində dərmanlama, yüksək temperaturda yandırılma və bir neçə prosesdən keçərək məhv edilir.

Hazırda ölkəmizdə plastik tullantıların azaldılması və təkrar emalına önəm verilir. Plastiklərin tərkibində PVC və bromin varsa, bunlar daha çox təhlükəli olur. Yandırılan zaman xərçəngə səbəb olan dioksinlər və furan birləşmələri atmosferə qarışır. Hazırda 37 şəhər və rayonda 250-dən çox tullantı konteynerləri quraşdırılıb. Tullantılar çeşidləmə zavoduna gedir, orada daha dəqiq kateqoriyalara bölünür və təkrar emala yönəldilir. Onu da deyim ki, hər bir təhlükəli tullantı ayrıca, xüsusi qablara toplanır. Sonra daşınması, saxlanılması və utilizasiyası həyata keçirilir.

Yeri gəlmişkən, əsas məqsəd yalnız enerji istehsal etmək deyil, həm də ekologiyanı qorumaq və tullantıları yandıraraq zərərsizləşdirməkdir. Tulantılar yanma prosesində yanan və yanmayan hissələrə ayrılır. Yanmış tullantıdan metallar, bir də 2 növ kül ayrılır: uçan və dib külü. Daha ağır və zərərsiz dib külü yol inşaatında tikinti materialı kimi istifadə olunur.

Tüstü külü isə xüsusi filtrlərlə tutularaq ətraf mühiti çirkləndirmir. Bundan əlavə, tullantının yandırılması zamanı texnoloji avadanlıqları soyutmaq üçün istifadə edilən təchizat suyu da təmizləndikdən sonra axıdılır.

***Söhbəti hazırladı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Unutsaq–unudularıq

# Şamil Şahməmmədov məktəbi

**Şamil müəllimlə şəxsi tanışlığımız mənim axşam qəzetlərində işə başlamağımdan sonra olsa da, onun imzasını xeyli əvvəldən izləyirdim. Əsasən oçerk və futbol reportajları yazardı. Reportajlar o qədər maraqlı olurdu ki, oxuyan, sanki, stadionda əyləşib matçı izləyirdi...**



Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsinin 1978-ci il buraxılışından (əyani) üç nəfər – Zemfira Seyidova (ailə qurandan sonra Məhərrəmli oldu), Aqil Dadaşov və mən o vaxtlar oxucular arasında çox populyar olan “Bakı” və “Baku” axşam qəzetləri redaksiyasında işə düzəldik. Zemfira və Aqil məndən bir neçə ay əvvəl redaksiyada müxbir (yarımştat) vəzifəsinə işə götürülmüşdülər.

Mənim təyinatım “Azərbaycan gəncləri” qəzetinə oldu. Redaksiyada boş ştat olmadığına görə, əmək müqaviləsi ilə işə başladım. Bir müddət sonra “Bakı” qəzetində yer boşaldı. O vaxtlar “Azərbaycan gəncləri” qəzetində məsul katib işləyən mərhum Zeynal Babayev Nəsir müəllimə mənim namizədliyimi verib. Nəsir müəllim də deyib ki, yazılarından gətirsin baxaq... O vaxtlar “Azərbaycan gəncləri” qəzetində mənim maraqla qarşılanan məqalələrim çıxmışdı. “Smolensk görüşləri” rubrikası ilə 5 nömrədə silsilə səfər təəssüratlarım, kosmonavt Yuri Qaqarinin anası ilə söhbətim, Xəzər dənizinin ekoloji problemləri barədə bir səhifəlik təhlili məqaləm... bunlardan idi. Bir neçəsini qovluğa qoyub getdim Nəsir müəllimin qəbuluna. Görən kimi tanıdı. Daxili telefonla məsul katib Şamil Şahməmmədovu yanına çağırıb dedi:

– Şamil, bu oğlan tələbəm olub. Yazılarını gətirib, bax, söhbət elə, məsləhət bilsən işə götürək...

İki gündən sonra gəlməyimi məsləhət bildilər. O vaxt axşam qəzetlərində iki redaktor müavini və iki məsul katib olmasına baxmayaraq, Nəsir müəllim işə adam götürəndə, ilk növbədə, Şamil müəllimin rəyini nəzərə alırdı. Bu, hər şeydən əvvəl, Şamil Şahməmmədovun obyektivliyinə dəlalət edirdi.

Yazılarımla tanışlıqdan sonra Şamil müəllimin rəyi müsbət olmuşdu. Nəsir müəllimə necə təqdim etmişdisə o, məni əsas şöbəyə tam ştata işə götürdü. Nəsir müəllimi tanıyanlar yaxşı bilirlər ki, o, çox nadir hallarda işçini tam ştata qəbul edirdi. Əvvəlcə ştatdankənar müxbir kimi, sonra isə yarımştat işlədir, dönə-dönə yoxlayıb, sınaqdan keçirirdi. Bu “sınaq müddəti” bəzən illərlə çəkirdi.

Birgə iş prosesində Şamil müəllimi daha yaxından tanıdım. Onun üzərinə çox ağır və məsuliyyətli iş düşmüşdü. O, təkcə məsul katib vəzifəsini icra etmirdi, gündəlik qəzetin hazırlanması, maketləşdirilməsi və çapı prosesində hər şeyi nəzarətində saxlayırdı.

Şamil müəllim hər gün qəzetin bütün səhifələrini diqqətlə oxuyurdu. Növbətçilərin düzəlişlərini öz səhifəsi ilə tutuşdurur, işə başdansovdu yanaşanların, məsuliyyətsizlərin abrını alırdı. Buna görə də, işçilərin çoxu ondan ehtiyat edir, qəzəbinə tuş gəlməməyə çalışırdı. Amma, digər tərəfdən belə ciddi nəzarət kollektivdə məsuliyyətin və səmərəliliyin artmasına səbəb olurdu.

İşə qəbul olunandan bir neçə həftə sonra növbətçi idim. Oxuduğum səhifələri Şamil müəllimin kabinetinə apardım. Tutduğum səhvləri öz səhifələrindəkilərlə tutuşdurduqdan sonra Suraxanı maşınqayırma zavodundan hazırlanmış hesabatdakı bir cümlənin altını cızaraq dedi: “Oxu!” Oxudum və bir şey başa düşməyib, təəccüblə üzünə baxdım. “Təkrar oxu!” – Yenə oxudum. Qarışıq tabeli budaq cümləsi idi. İndi hiss etdim ki, mübtəda ilə xəbər uzlaşmır.Yəni, “müəssisənin kollektivi... nail olublar.” kimi gedib. Yazının müəllifi qaldı bir tərəfdə, Şamil müəllim diqqətsiz növbətçi kimi, məni, yalan olmasın, yarım saat danladı, necə deyərlər “ağ yuyub, qara sərdi”. Axır ki, bir xırda səhvə görə bu danlaqdan özü də bezib məsələyə son qoymaq istədi: Yaxşı, indi de görüm niyə belə olur?

– Bilməmişəm – dedim.

Şamil müəllim elə bil bu cavabı gözləyirmiş kimi dərhal dedi: Oğul, bura bilənlər idarəsidir. Bilməyənlərin burada nə işi var?

– Burada işləməyimdə sizin də razılığınız olub, – dedim və bununla da söhbət bitdi.



Amma, Şamil müəllimin bu danlağı, sözün əsl mənasında, mənə heç vaxt unutmayacağım bir “dərs” oldu. Özümə söz verdim ki, bir də heç vaxt diqqətsizlik etməyəcəm.

Bundan əlavə, Şamil Şahməmmədovdan necə redaktə etmək lazım olduğunu da öyrənməyə çalışırdım. Redaktəni təkcə ondan yox, illər boyu bir yerdə işlədiyim Nəsir İmanquliyevdən, Cəmil Əlibəyovdan, Tofiq Rüstəmovdan, Şamil Fərzəliyevdəın, Zeynal Babayevdən, Ramiz Əhmədovdan, Rəfail Nağıyevdən, Əşrəf Hacıyevdən, Şakir Yaqubovdan və başqalarından əxz etmək üçün onların oxuduqları yazıları dönə-dönə nəzərdən keçirirdim.

Səksəninci illərin ortalarında Şamil müəllimi Azərbaycanın 1 nömrəli mətbu orqanı olan “ Kommunist” qəzetinə redaktorun birinci müavini vəzifəsinə işə apardılar. Burada çox işləməsə də, kollektivdə axşam qəzetlərinin ab-havasını yaratmağa çalışdı. Onun təşəbbüsü ilə “Kommunist”ə nisbətən cavan kadrlar gətirildi. Amma, etmək istədiklərini tam reallaşdıra bilmədi. Əvvəla, “Kommunist”in veteranları ona qarşı ciddi dirəniş göstərdilər. Digər tərəfdən, Nəsir müəllimin vəzifədən kənarlaşdırılması ilə əlaqədar axşam qəzetlərinin rəhbərliyinə Mərkəzi Komitə Şamil Şahməmmədovu məsləhət bildi və 1988-ci ilin əvvəllərində o, yenidən doğma kollektivə qayıtmalı oldu. Lakin doğma kollektiv onu yalnız üzdə “mehribancasına” qarşıladı. Arxada isə... Əvvəldən onunla yola getməyənlər birləşib redaksiyada işi pozur, qəzetlərin normal çıxmasına mane olurdular. İrəli çəkib arxalandığı gənc kadrlar da dar məqamda ona kömək edə bilmədilər və yaxud etmək istəmədilər.

Respublikada da vəziyyət dəyişmişdi, demək olar ki, bütün sahələr idarəolunmaz hala düşmüşdü. Qəzetlərin çıxıb-çıxmaması redaktorlardan, yaxud kollektivdən yox, nəşriyyatda at oynadan bir qrupdan asılı idi. Onların da arasında təsadüfi insanlar az deyildi... Qərəz, Şamil müəllim kimi tələbkar və ciddi bir redaktor üçün bu şəraitdə ürəyincə olan qəzeti çıxarmaq müşkül idi...

Azərbaycan KP Mərkəzi Komitəsinin və Bakı Şəhər Partiya Komitəsinin müvafiq qurumları da axşam qəzetlərinin redaksiyasındakı vəziyyətdən xəbərdar idilər. Odur ki, kadr dəyişikliyi etməyi lazım bildilər. Ş. Şahməmmədov Azərbaycan Dövlət Teleqraf Agentliyi – AZƏRTAC-ın direktorunun müavini vəzifəsinə təyin olundu.

Bu, Şamil müəllimin jurnalist kimi əmək fəaliyyətində üçüncü və son iş yeri oldu. Bir neçə il AZƏRTAC-da direktor müavini işlədi. Neçə direktor gəlib-getdi. Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan bir müddət sonra Şamil Şahməmmədov agentliyin direktoru təyin olundu.

O vaxtlar Azərbaycan Dövlət İnformasiya Agentliyinə və onun direktoruna da ölkə rəhbərliyinin münasibəti fərqli idi. Respublika Prezidenti xarici səfərlərə gedərkən və qayıdarkən Binə Hava Limanından onu yola salan və qarşılayan yüksək ranqlı məmurlar arasında AZƏRTAC-ın direktoru Şamil Şahməmmədov da olardı. Bu, Şamil müəllimə qol-qanad verir və onu yorulmaq bilmədən, gecə-gündüz işləməyə sövq edirdi.

Ümumiyyətlə, Şamil müəllim işdən çəkinən insan deyildi, “yoruldum” demədən çalışırdı. Onu yaxşı tanıyırdım. On ilədək axşam qəzetlərində bir yerdə işləmişdik. Baş redaktor kimi təyinatını axşam qəzetinə yenicə almışdı ki, bir gün məni kabinetinə dəvət edərək dedi: – “Kommunist” qəzetinin redaktoru dünən səndən ötrü mənə zəng etmişdi. Səni öz kollektivinə aparmaq istəyir. Bu gün MK-nın təbliğat şöbəsindən də mənə zəng etdilər ki, mane olmayım. İndi seçim özünündür: gedə də bilərsən, qala da. Mənim fikrimi bilmək istəyirsənsə, bir yerdə işləməyimizi istəyirəm, amma getməyinə mane olmayacağıma söz vermişəm...

Beləcə, mən köçürmə qaydası ilə “Kommunist” qəzetində işə başladım. Qeyd etdiyim kimi, bir neçə il sonra Şamil müəllim də AZƏRTAC-a gəldi. Eyni binada işlədiyimizə görə tez-tez görüşür, arabir köhnə xatirələri yada salırdıq. Bir dəfə aramızda belə mükalimə oldu:

– Qaragüruh (axşam qəzetlərində ona qarşı çıxanları nəzərdə tuturdu) mənə qarşı mübarizəyə başlayanda orada işləsəydin, güman edirəm ki, sən də onların arasında olardın, elə deyilmi? – deyə Şamil müəllim zəndlə mənə baxdı.

– Niyə belə fikirləşirsiniz?

– Çünki sənin müdirin təşkilatçılardan biri idi.

– Görünür, siz məni hələ də yaxşı tanımamısınız. Mən həmişə haqqın tərəfində olmuşam, orada da kim haqlı idisə, onun tərəfində olardım... – dedim.

– Mən “güman edirəm”– dedim... Sən bizdən gedəndən sonra eşitdim ki, çox vaxt müdirinlə sözünüz düz gəlməyib, yola getməmisiniz, bundan xəbərim olmayıb.

– Sizə söz çatdıranlar heç də düz-əməlli adamlar deyildi. Mən orada olanda deməzdilər. Onlar çox dostlarınızla sizin aranızı vurdular...

Bu sözün onun xoşuna gəlmədiyini çöhrəsinin rənginin dəyişməsindən hiss etdim. Bir az ara verib, yarıəsəbi şəkildə dedi:

– Mənə qarşı çıxanlar elə bildilər ki, mənə pislik elədilər, amma əksinə alındı. Cənab Prezident saydı-seçdi, irəli çəkdi, bu boyda Dövlət Agentliyinin idarəçiliyini mənə etibar elədi. Zəhmətimi qiymətləndirdi, mənə orden verdi. Orada qalsaydım, bunların heç biri olmayacaqdı. Nəyə nail oldular. Heç düz-əməlli bir qəzet də çıxara bilmirlər. Bir-biri ilə didişib, pərən-pərən olublar. Hərdən dua edirəm ki, Allah onlardan razı olsun.

Bir qədər ara verib soruşdu:

– Müdirinlə heç görüşürsənmi?

– Arabir. Bu yaxınlarda yanıma gəlmişdi. Sizi soruşdu...

– Nə dedi?

– Sizin haqqınızda xoş sözlər dedi, xatirələr danışdı. Onu da dedi ki, bu gün Azərbaycan mətbuatında üç güclü jurnalist varsa, biri də Şamil Şahməmmədovdur...

– Biri məlumdur, bəs görəsən ikisi kimdir?

– Onu da dedi. Necə deyibsə təkrar edirəm: Birincisi Rəfail Nağıyev, ikincisi Şamil Şahməmmədov, üçüncüsü Füzuli Əfqanoğlu...

Üçüncüsünü deyəndə Şamil müəllimi elə bil arı sancdı. Oturduğu yerdən qalxıb qəti şəkildə dedi:

– Ona de ki, mənim adımı o siyahıdan çıxarsın! O sayaq lütfkarlıq mənə lazım deyil.

Şamil müəllim bağışlamağı xoşlamazdı. Bir adam ki, gözündən düşdü, külli-aləm yığışıb gələ, onu əfv etməzdi. O, bunu prinsipiallıq sayırdı və prinsipial olmayanları qəbul eləmirdi. Belə “prinsipiallıq”, əslində, kinə çevrilir və öz səhhətinə sağalmaz yaralar vururdu. Onu da əlavə edim ki, inanıb özünə yaxın buraxdığı şəxslər çox asanlıqla onda istənilən insan haqqında fikir formalaşdıra bilirdilər. Yəni, onlara o qədər inanırdı ki, bunun üçün dəlil-subut tələb etməzdi...

Şamil müəllimin dövründə, daha doğrusu o, xəstələnənədək AZƏRTAC saat mexanizmi kimi dəqiq işləyirdi. Təsadüfi hallarda materiallarda səhvlərə rast gələrdin...

Uzun illər boyu, bir qayda olaraq, əsəblərin tarıma çəkilməsi ilə müşayiət olunan gərgin iş öz təsirini göstərməyə bilməzdi. Məlum olduğu kimi, ağır xəstəliyə tutuldu. Respublika rəhbərinin bilavasitə göstərişi ilə ölkədən kənarda müalicə alsa da tam sağalmadı. Buna baxmayaraq, bir müddət işini davam etdirdi, çətinliklə də olsa, işə gəlib-getdi. Nəhayət, ölkə rəhbərliyi səhhətini və müalicəsinin davam etdirilməsini nəzərə alaraq, onu çox böyük hörmət-izzətlə yola saldı. Bu, əslində, ən düzgün seçim idi. Çünki, Şamil müəllim ağır xəstəliklə mübarizə apararaq uzun illər yaşaya bildi. Amma, bu illər, Şamil müəllim üçün, həm də, yaşadığı ömrə baxış fürsəti oldu: harada düzgün qərar qəbul edib, harada səhvə yol verib – bütün bunları götür-qoy etmək imkanı oldu.

... Arabir zəngləşirdik, daha doğrusu, ad günündə, bayramlarda, digər əlamətdar günlərdə mən ona zəng vurur, təbrik edir, hal-əhval tuturdum. Bir gün o mənə zəng etdi:

– Mətbuat Şurası mənimlə görüş keçirdi. Güman edirdim sən də orada olarsan...

– Dəvət etməmişdilər... Necə keçdi?

– İndiyədək keçirilən tədbirlər kimi... Sayıb keçirdiklərinə görə sağ olsunlar... Sonda mənə söz verdilər ki, arzu-diləyimi deyim. Bilirdim ki, qarşıda cənab Prezident tərəfindən jurnalistlər üçün inşa edilmiş evin bölgüsü olacaq. Mətbuat Şurasının sədri də, fondun icraçı direktoru da orada idi. Xahiş etdim ki, bölgüdə ədalətli olsunlar, jurnalistikada can qoyan və evi olmayan həmkarlarını nəzərə alsınlar... Təkcə sənin adını çəkdim və ailə vəziyyətini dilə gətirdim... Nə əcəb, sənə deyən olmayıb? Axı sizin kollektivdən də orada iştirak edirdilər... Əgər sənin əleyhinə bir söz desəydim, dərhal çatdırardılar...

Son zənglərin birində Şamil müəllim aramızda bir neçə il əvvəl olmuş söhbəti xatırlatdı:

– Yadındadır, bir dəfə mənə irad tutdun ki, dincəlmirəm, istirahət etmirəm, canıma qəsd edirəm... və nəticədə qazancım ağır xəstəlik oldu. Haradasa, haqlısan, amma, mən başqa cür ola bilməzdim. Bu yol mənim seçimimdir. Məsuliyyətsizlik mənə ölümdən betərdir. Digər iradınla isə tam razıyam: özümə sədaqətli dost, tərəfdaş seçə bilməmişəm. Daha doğrusu, seçdiklərim dar ayaqda qaçıb aradan çıxıblar, yaxud mənə qarşı olanlarla birləşiblər, xəyanət ediblər. Amma mən onlar üçün çox şey etmişəm, mənzil¬-məişət problemlərini yoluna qoymuşam, övladlarının nüfuzlu ali məktəblərə qəbul olunmasına kömək etmişəm, bir çoxunu layiq olmadığı məqama yüksəltmişəm... Şübhəsiz, onların bu xəyanəti mənə daha ağır zərbə olub. Bu barədə düşünərkən, istər-istəməz el deyimini xatırlayıram: Görünür, çörəyimin duzu yoxmuş...

Şamil müəllim barədə bu xatirələrimi yazmazdan öncə bir qədər tərəddüd etdim. Rəhmətliyi oxucunun gözündə qaldıran o qədər özəl keyfiyyətləri vardı ki, onları da misal gətirmək, sadalamaq olardı, yaxud əksinə...

Tarixən belədir ki, böyük insanların həyatda buraxdıqları səhvlər də böyük olur. Onları deməmək düzgün olmazdı. Odur ki, bəzilərinə toxunmağı, Şamil müəllimi olduğu kimi, necə tanımışamsa, eləcə – bəzəksiz-düzəksiz təqdim etməyi qərara aldım...

Sonda isə bunu deməyə bilmərəm. Çağdaş Azərbaycan jurnalistikası Şamil müəllimin simasında özünün ən dəyərli nümayəndələrindən birini itirdi. Ana dilimizin formalaşıb cilalanmasında, ən çətin mətləblərin oxuculara anlamlı və rəvan şəkildə çatdırılmasında onun danılmaz xidmətləri olub. O, redaktənin mahir ustası, qəzetçilikdə məktəb idi. Şamil müəllim həmişə fəxrlə deyərdi ki, o, “Nəsir İmanquliyev məktəbi”nin yetirməsidir. Onunla işləyən gənc jurnalistlərin bir çoxu isə bu gün “Şamil Şahməmmədov məktəbi”nin yetirməsi olması ilə fəxr edir. Allah ruhunu şad eləsin!

***Qüdrət PİRİYEV***
***XQ***

# Yay ola... qarpız ilə

**Qarpız yay aylarının ən sevimli meyvələrindən biridir. Onun saysız-hesabsız faydaları var. Dietoloqlar sağlam qəlyanaltı üçün ideal seçim olan bu meyvənin sağlamlığa təsirlərini təqdim ediblər:**

– Qarpızın tərkibində 170 milliqram kalium var. Bu, sinir və əzələ funksiyasını, eləcə də bədəninizdə maye balansını dəstəkləyən vacib bir mineraldır. Qarpız çoxlu miqdarda A vitamini və C vitamin ehtiva edir.

– Susuzluq və yorğunluq əzələ və baş ağrılarına səbəb olur. Qarpızın 92 faizi su olduğu üçün yay aylarında bol miqdarda yemək tövsiyə edilir.

– Qarpız həm də ideal çəkini qorumaq və ya arıqlamaq üçün də uyğun meyvədir. Kalorisi azdır, şirniyyat istəyini azaldır. Tərkibində çoxlu su olduğu üçün uzun müddət toxluq hissi yaradır.

– Qarpız yemək müntəzəm olaraq sağlamlığı dəstəkləyir. Diabet, piylənmə, ürək-damar xəstəliklərindən, xərçəngdən və xroniki digər xəstəliklərdən qorunmaq üçün qarpız istehlak etmək vacibdir. Qarpız bütün bu faydalarını orqanizmi stressdən qorumağa və hüceyrə zədələnməsinin qarşısını almağa və ya yavaşlatmağa kömək edən antioksidantlara borcludur.

– Qarpızın tərkibindəki maddələr katarakta əmələ gəlməsinin qarşısını almağa və ya gecikdirməyə kömək edir. Bu, hətta korluğa səbəb ola biləcək yaşa bağlı makula degenerasiyasının inkişaf riskini azalda bilər

– Qarpızın tərkibində çoxlu miqdarda C vitamini (askorbin turşusu) var ki, bu da immunitet sisteminizi mikroblara və infeksiyalara qarşı mübarizədə dəstəkləyir. İmmunitett güclü olduqda xərçəng riski də azalır.

– Qarpız bədəninizin bərpasına və məşqdən sonra daha yaxşı hiss etməsinə kömək edə bilər.

– Bu meyvənin tərkibindəki C vitamini bədəninizə immunitet sisteminizi, hüceyrələrinizin sağlamlığını və zədələrdən sağalma qabiliyyətinizi dəstəkləyən kollagen istehsal etməyə kömək edir. Kollagen istehsalı artdıqda dəri keyfiyyəti də yaxşılaşır.

***Z.HÜSEYNLİ***
***XQ***



Təbiət imdada çağırır bizi

# Bəşəriyyət ekoloji bumeranqın hədəfində

**Bəd xəbərlərə alışmış qulağımız daha birisni eşitdi: dünyanın nadir incilərindən biri olan Siciliyadakı Perquzani gölü quruyur. O, son illər quruyan neçənci göldür? Sayını itirmişik. Böyüklüyü ilə dənizi xatırladan Urmiya gölünün göz baxa-baxa duz səhrasına çevrilməsi isə Güneyli soydaşlarımız kimi bizim də qəlbimizi göynətməkdə davam edir. Bu göllər niyə quruyur, onu kimlər qurudurlr. Nə üçün bu nadir sututarların axırına çıxılır?**



Ali məxluq – şüurlu insan bu il yenidən, 29-cu dəfə bir yerə yığışacaq, geniş formatda təmtəraqlı məşvərət keçirəcək, saatbasaat pisləşən iqlim şəraitini yaxşılaşdırmaq üçün "təsirli" tədbir planı hazırlayacaq. Dünyanın yüksək titullu alimləri bu dəfə Bakıda keçirilən COP29 konfrasında da ciddi və ağrılı məruzələr edəcəklər, bəşərin üstünə gələn kabusdan, kəskinləşmiş ekoloji fəlakətdən həyacanla danışacaqlar. Geniş müzakirə kəskin çağırışlarla bitəcək. Sonra, təbii olaraq, hərə öz evinə gedəcək. Görəsən, sərvətlərini durmadan artırmaq üçün ümumi evimiz olan Ana Təbiəti zəhərləyənlər, həyat mənbələrini durmadan sıradan çıxaranlar dayanacaqlarmı? Bu qənimətçil zümrələrin ətraf mühitə hücumunun qarşısı qəti, kəsərli tədbirlərlə alınmasa iqlim şəraiti yaxşılaşmıyacaq. Canlı həyatı təhdid edən qlobal istiləşmə daha güclü formada davam edəcək.

Gözləntilərimizin ümidli olması üçün yaxınlaşan fəlakətin miqyasını anlamaq və anlatmaq ən ümdə vəzifəyə çevrilməslidir. İllər boyu alışdığımız özü deyib, özü eşitmək gerçəyinə son qoyulmalıdır. Müdriklər buyurub ki, həqiqətlər müqayisədə üzə çıxır. Bizim isə müqayisə etməyə kifayət qədər materialımız var. Bildiyiniz kimi, müntəzəm toplaşan və yaranmış ağır vəziyəti müazkirə edən təkcə "iqlim loğmanları" deyil. Tibb uzmanları da tez-tez ali məclislərdə görüşür, çeşidi və qurbanları get-gedə, özü də kosmik sürətlə artan xəstəliklərin qarşısını almaq yollarını müzakirə edirlər, "mühüm" tədbirlər planı hazırlayırlar. Xəstəliklər isə güclənir, ən başlıcası isə, "cavanlaşır" – "qocalıq xəstəliyi" sayılan xərçəng, diabet uşaqları da əldən salıb.

Sülh və təhlükəsizlik "loğmanları" isə, az qala, hər gün yığışıb, "tədbir" hazırlayırlar. Münaqişələr, müharibələr daha da şiddətlənir. Bu gün elmin və alimlərin xilas yolu axtardığı zavallı planetimizin durumu haqqında düşünərkən, öz məşəqqətli həyatım yadıma düşür. Məni də elə həmin yüksək titullu alim və təbiblər "Bexteryev xəstəliyi" deyilən bir bəlanın əlindən almağa çalışırdılar. Səhhətim, bugünkü iqlimin durumu kimi, beynəlxalq vəziyyət kimi yaxşılaşmaq əvəzinə, get-gedə pisləşirdi. Güclü preparatlar daxili orqanlarımı bir-bir sıradan çıxarırdı, köhnə xəstəliyimin üstünə yeniləri gəlirdi. 40 yaşa çatanda artıq 8 azarın dağ ağırlığını cılız çiyinlərimdə daşıyırdım. İş qabliyyətimi tamam itirmişdim.





Əlacsız qalıb birinci qrup əlil kimi təqaüdə çıxdım. 60 yaşa çatanda, yapon alimi, XX əsrin loğmanı Katsuzo Nişinin sağlamlıq sistemi ilə tanış oldum. İradəmə hakim olub həyat tərzimi tamamilə dəyişdim və tezliklə əksər bəlalardan xilas oldum. Bu gün dünyanın 3 qlobal problemini – iqlim, sülh və sağlamlıqla bağlı təhlükəli durumu həll etmək istəyən alim və mütəxəssislər məni sağaltmaq istəyən həkimlərin buraxdığı səhvi təkrarlayırlar. Nədir bu səhv?

COP29-a gələcək alimlər yaxşı bilirlər ki, Kainat, əsasən, 3 əbədi qanunla idarə olunur: səbəb və nəticə; tarazılıq; əskiliklərin vəhdəti. Təbiətin ayrılmaz tərkib hissəsi və çox kiçik bir zərrəciyi olan insan orqanizmi də bu qanunlara tabedir. İnsan yeganə varlıqdır ki, təbiət qanularını pozur, həm özünü, həm də təbiəti zəhərləyir, ətraf mühiti korlayır, iqlim şəraitini pisləşdirir. İnsan yeganə varlıqdır ki, belə ağır cinayət törədir.

Cəmiyyət qanunlarını pozan kimsə cəzadan yayına bilir: tanışlıq, himayə, rüşvətlə. Amma təbiətin cəzasından qaçmaq mümkün deyil. O, nə arxa-dayağa baxır, nə tanışlığa, nə də rüşvətə. Təbitə qarşı cinayət varsa, mütləq cəza da olmalıdır. Ali hakimin – təbii qanunların təyin etdiyi ən ağır cəzası sağalmaz sayılan xəstəliklərdir. Ondan nə kasıb yan keçə bilir, nə də varlı.

İnsanın törətdiyi ən ağır cinayət bəndənin öz qanını zəhərləməsidir. Ona görə ki, zəhərlənmiş qan təkcə orqanizmin xəstələnməsi ilə bitmir, daha ağır fəsadlar törədir. Bir cümlə ilə deyə bilərik ki, Yer üzündə baş verən bütün cinayətlər korlanmış qanın nəticəsidir. İnsan yeganə canlıdır ki, öz növündən olan canlıları kütləvi şəkildə qırır, onu yaradan və yaşadan planeti silah anbarına döndərir. Heç bir heyvan – istər ətyeyən olsun, istərsə də otyeyən öz növündən olan canlını qırmır. İnsan isə öz növünü kütləvi şəkildə qırmaq üçün məhvedici silahlar və müharibə üsulları hazırlayırnları müntəzəm təkmilləşdirir.

Hüquqi qanunlar belə ağır cinayətlər törədən insanları nəinki cəzalandırmır, əksinə, təqdir edir, daha çox insan öldürənləri, kənd və şəhər dağıdanları mükafatlandırır. Ədalətli Hakim olan Təbiət isə bu "qəhrəmanları" da cəzalandırır. Cəza forması isə hamı üçün eyni olur – xəstəliklər, münaqişələr, müharibələr, təbii fəlakətlər və iqlim şəraitinin pisləşməsi.

Bəşərin faciəsi bundadır ki, bu cəzaları törətdiyi cinayətin nəticəsi saymır, normal hal kimi qəbul edir, onları yaradan səbəbi axtarmır. Heç kəs yüksək kürsüdən demir ki, bütün fəlakətlərin arxasında nəfs və tamah durub, yırtıcı biznes qərar tutub. Mötəbər tədbirlərdə çıxış edən elm adamları və siyasətçilər, nəhayət, açıq deməlidirlər ki, qlobal böhranlar yaradan yırtıcı biznes tək-tək adamları varlandırır, əvəzində torpağı, havanı, suyu zəhərləyir. Nəzarətsiz sənaye istehsalatları Kosmosu zibilləyir, dağları söküb dağıdır, yerin altını üstünə çevirir. Dövləti idarə edən siyasi elita da, elm və təhsil də, ədəbiyyat və incəsənət də, KİV də, ən başlcası isə reklam da bu qara biznesin mahiyyətini anlayıb onun qarşısını kəsməlidir. Qara biznesin qara əl-qolu bağlanmalıdır.

Məşhur Amerika psixoloqu, əsərləri dünyanın 80-dən çox dilinə çevrilmiş Stiven Kovi problem bataqlığında çabalayan bəşərin təqsirini çoxdan üzünə vurub. O, problemlər qarşısında aciz qalan insanlara üz tutaraq deyib: "Ən böyük bəla budur ki, insan problemi özündə deyil, kənarda, hardasa kənarda axtarır". İnsan, elə bil, öz həyat təyinatını problem yaratmaqda və onları "həll etməkdə" görür. Bu üzdən problemlər azalmır, artır. Ağır problemi daha ağırı əvəz edir. İnanırıq ki, COP29 iştirakçıları bu dəfə tribunaya qalxanda ilk olaraq deyəcək: "Gəlin, özümüzdən başlayaq – həyat tərzimizi dəyişək!".

Həyat tərzini dəyişmək, yəni bu qədər vacibdir? Nəinki vacibdir, həm də zəruridir. Görün, Hipokrat ölümün səbəbini nədə görüb: "Bizi öldürən qocalıq deyil, pis vərdişlərdir!". Pis vərdişlərin toplusuna "qeyri-sağlam həyat tərzi" deyirlər. Hippokrat əyyamında pis vərdişlər az idi. İndi ölü qida yemək və uzlaşmayan qidaları qarışdırmaq kimi pis vərdişə mobil telefonla yatıb-durmaq aludəliyi də qoşulub. İndiki uşaqlar çörək yeyəndə də telefonu əllərindən yerə qoymurlar. Bu nəslin baş tərbiyəçisi, sanki, "mobildir". O isə nəhəng biznesə xidmət edir. Qazanc ehtirası, sanki, ona tələb edir ki, Yer üzündə daha çox xəstə, silah müştərisi, fəlakət, narkoman, dəli olsun.

Bəşəriyyətin qara təbliğat maşınının gipnoz elədiyi, zombiləşdirdiyi insanı yırtıcı biznesin qanlı caynağından dartıb qopartmağa hünəri çatmalıdır. Bu, çətin və müşkül deyil – məhz özündən başlamaqla mümkündür. Mən, ali təhsilli jurnalist, 60 yaşa çatana qədər çoxları kimi, pis vərdişlərin əsiri, mədəmin qulu olmuşam. Bu quyudan çıxmağın nə qədər çətin olduğunu yaxşı dilirəm. İşi çətinləşdirən ən böyük amil – ölü qidalar və dərman haqqında yaradılan mifdir. Heç görmüsünüzmü hansı bir ölkədəsə sağlamlıq cövhəri olan kök, çüğundur, ispanaq, kərəviz, digər canlı qidalar reklam olunsun?

Mən də 60 il qidada fayda yox, ləzzət axtarmışam. Çoxlu çörək və un məmulatı, ətli, yağlı xörəklər yemişəm, tünd çay içmişəm. Duzdan, şəkərdən, turşudan, mürəbbədən bol-bol istifadə etmişəm. Uzlaşmayan qidaları qarışdırmışam. Bir sözlə, təbiətin əbədi qanunlarına – uyarlıq, ahəng və bütövlüyə zidd getmişəm, öz hüceyrələrimə qarşı cinayət törətmişəm. Cəzası da ağır olub – 8 "sağalmayan" (rəsmi tibb elminin fikirincə) xəstəlik qazanmışam.

Katsuzo Nişinin dühası sayəsində nicat yolunu tapdım, qeyri-sağlam həyat tərzinin üstündən qalın qara xətt çəkdim, sağlam həyat tərzinə keçdim və çox qısa vaxtda sağaldım. Yəni səbəbi aradan qaldırdım, nəticə özü getdi. Xəstə planetimizi də bu cür sağaltmaq olar. Səbəbi aradan qaldırmaq – iqlimin korlanmasını dayandırmaq lazımdır.

Sağlamlıqla bağlı əsərlər yazarkən bu qənaətə gəldim ki, əgər bəşəriyyət tibb elminin təməlinə Hippokratın "nə yeyiriksə – oyuq" və Məhəmməd peyqəmbərin "bütün fəsadların yuvası mədədir, bütün dərdlərin çarəsi pəhrizdir" kəlamlarını qoysaydı nə xəstəlik olardı, nə müharibə, nə də qlobal istiləşmə. İnsanlıq başqa yol tutdu – milyardlarla "elmi əsər" yazdı, – yüzlərlə elm qolu yaratdı, bir köhnə problemi həll edərkən yenisini, daha güclüsünü yaratdı. İndi də problem girdabında çabalayır.

Qidada fayda deyil, ləzzət axtaran insan fasiləsiz şlak – zəhər istehsalı ilə məşğul olur. Bu zəhər isə həm fərd, həm cəmiyyət, həm də təbiət üçün böyük bəla ocağıdır. Şlakı təhlükəli edən 3 amil var. Birinci, canlı hüceyrələr ondan heç bir fayda ala bilmir, artıra bilmir. Toxumalar kütləvi şəkildə dağılır, immun sistemi zəifləyir. İkinci, şlak mikrob və bakteriyaların sevimli yemidir. Yemi bol olan düşmən "ordusu" sürətlə artıb-törəyir, zəifləmiş hüceyrələri kütləvi şəkildə qırır.

Beləliklə, bədəndə dost zəifləyir, yağı güclənir. Şlakı dəhşətli edən üçüncü amil budur ki, ölü qan yaradan bu həyat tərzi insanın şüuruna, əxlaqına, əqidəsinə, qəbul etdiyi qərara və əməlinə də pis təsir göstərir. Xəstə proses "ali şüurlu" varlığı həm öz canının, həm cəmiyyətin, həm də təbiətin qatı düşməninə çevirir. İnsanın tez ölməsinin səbəbi onun özüqarışıq canlı aləmə vurduğu ağır zərbələrin nəticəsidir.

Dünyanın 3 nəhəng dahisi bu gün planetimizin üz-üzə qaldığı fəlakətin "yol xəritəsini" cızıb. Bəşərə həqiqi tibb elmini bəxş edən böyük loğman, həkimlərin and yeri olan Hippokrat "Nə yeyiriksə – oyuq" həqiqətini diqqət mərkəzinə çəkməklə, eramızdan xeyli əvvəl insan orqanizminin qidadan asılı olduğunu bizə anlatmağa çalışıb. Biz, "ali şüurlu" insanlar bu sadə həqiqəti indi, XXI əsrdə dərk edə bilmişikmi?

**(ardı var)**

***Ərşad ƏZİMZADƏ,***
***"Ana Təbiət" Natural Gigiyena Mərkəzinin rəhbəri, yazıçı-jurnalist***

# Dünya animatorları Bakıda yarışacaqlar

**Son illər ölkəmizdə davamlı film festivallarının təşkili milli kinematoqrafiyamızın inkişafı və filmlərimizin təbliği ilə bağlı uğurlu platformalardan hesab olunur. Paytaxda beynəlxalq və yerli film festifallarının gerçəkləşməsi ənənə halını alıb. Növbəti sənət yarışması olacaq ANİMAFİLM Beynəlxalq Film Festivalına hazırlıq davam edir.**

Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi, Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə oktyabrın 2-dən 6-dək gerçəkləşəcək müsabiqədə peşəkar animatorların, eləcə də animasiya dünyasına yeni daxil olmuş istedadlı gənclərin filmlərini izləmək mümkün olacaq.

**Bu barədə XQ-yə ətraflı bilgi verən Azərbaycan Animasiya Assosiasiyasının sədri, prodüser Rəşid Ağamalıyev bildirdi ki, Bəşəri mədəniyyətin inkişafı və təbliği üçün təsirli vasitələrdən biri də kino yaradıcılığı, filmlərdir:** "Elə buna görə də kinematoqrafiyanı bəşəriyyətin böyük kəşfi adlandırırlar. Xalqların kimliyi və milli-mənəvi dəyərləri kinonun yaratdığı geniş imkanlarla insanlara əyani şəkildə təqdim olunur. Kino hər zaman inandıra bilmək gücünün olması ilə xüsusi maraq kəsb edib. Bu xüsusiyyətlər filmlərin bütün janrları üçün keçərli hesab olunur. Azərbaycan mədəniyyətinin kino salnaməsi bədii, sənədli və animasiya üslubu ilə çətin və şərəfli yol qət edib. Bu gün ölkəmizdə film sənayesinin daha irəli getməsi ilə bağlı müxtəlif layihələr icra edilir, müzakirələr aparılır, beynəlxalq festivallarda iştiraka önəm verilir".




**Bakıda keçiriləcək ANİMAFİLM-in özəlliklərindən danışan müsahibimiz qeyd etdi ki, 7-ci dəfə təşkil edilən festivalda müxtəlif ölkələri təmsil edən yeni animasiya filmləri və müsabiqədənkənar sürpriz filmlər göstəriləcək:** "Beynəlxalq sənət nümayişinin müsabiqə mərhələsinə 2 beynəlxalq və 2 yerli kateqoriya üzrə 37 ölkədən 196 film daxil olub. 18 ölkədən 48 ekran əsərinin iştirakı seçim komissiyası tərəfindən məqbul hesab edilir. Bu ekran əsərlərindən 12-si yerli, 36-sı isə beynəlxalq kateqoriyalarda təqdim ediləcək. Həmin filmləri beynəlxalq münsiflər heyəti və tamaşaçılar qiymətləndiriləcək, qaliblər festivalın bağlanış mərasimində elan olunacaqlar".

**Münsiflər heyətinin üzvlərinin tezliklə açıqlanacağını söyləyən Rəşid Ağamalıyev dedi:** "Qaliblər üçün nəzərdə tutulan təltiflər – beynəlxalq müsabiqənin: "Ən yaxşı qısametrajlı animasiya filmi", "Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi", yerli müsabiqənin: "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi", "Ən yaxşı Azərbaycan tələbə qısametrajlı animasiya filmi", "Tamaşaçı rəğbəti" mükafatı və "Tərəfdaşların xüsusi mükafatları" olacaq. Beynəlxalq Animasiya Festivalının proqramı və bilet satışı haqqında məlumat isə sentyabrda elan ediləcək".

**Bu festivalın ölkəmizdə animasiya sahəsinin inkişafına təsir imkanlarından söz açan tanınmış animasiya rejissoru,**



**Əməkdar mədəniyyət işçisi Elçin Hami Axundov vurğuladı ki, tədbirlər sahənin təbliği və dirçəlişi baxımından önəmli olacaq:** "Animasiya spesifik bir janrdır. Onun ssenarisi də mütləqdir ki, fərqli olsun. O zamanlar bu sahə maraq az idi, demək olar ki, heç kim animasiyaya diqqət ayırmırdı. Biz hətta animasiya haqqında bir kitab da buraxmışdıq. Bir sıra addımlar atmağımıza baxmayaraq, sözügedən sahəyə diqqət cəlb edə bilmədik. Sonralar bu belə qənaətə gəldik ki, festivallar təşkil olunsun. İlk festivalların maliyyə dəstəyini çətinliklə tapırdıq".

**Rejissor Mədəniyyət Nazirliyinin indi bu sahənin inkişafına diqqət ayırdığını qeyd edərək bildirdi:** "Qurumun dəstəyi ilə biz bu ildən animasiya kursları açdıq. Kurslarda 20-dək insan bu sahəni öyrənmək üçün təhsil alır. Tədris prosesi xarici müəllimlərin iştirakı ilə ingilis dilində aparılır. Bizdə animasiya studiyası hələki yoxdu. Düşünürük ki, kurslar bitdikdən sonra studiyalar aça biləcəyik.

Animasiyanın inkişaf etdiyi ölkələrin təcrübəsini öyrənməklə, biz bu yöndə daha böyük uğur əldə edə bilərik. Bu baxımdan keçirilən festival əhəmiyyətli olacaq."

***Ceyhun ALIŞLI***
***XQ***

# "Ulduz"un növbəti söz boxçası

**Azərbaycan Yazıçılar Birliyinin ədəbi-bədii nəşri, aylıq "Ulduz" jurnalının iyul–avqust sayı işıq üzü görüb. Gənclik dərgisinin yeni formatda buraxılan 2-ci sayında da istedadlı müəlliflərin yeni yaradıcılıq nümunələri aparıcı yer tutur.**

Nömrə yazıçı Mirmehdi Ağaoğlunun "Özüylə söhbət"i və hekayəsi ilə başlayır. "Şeir vaxtı" rubrikasında Rəbiqə Nazimqızının poetik nümunələri yer alıb. Jurnal Təranə Dəmir, Pərviz Qurbanlı, Pərviz Axund, Aynur Qafarlı, Cavid Fərzəli, Ceyhun Ötkəm kimi müəlliflərin də şeirlərini təqdim edib.

Ənənəvi "Qısa fikirlər xəzinəsi" dahi Məhəmməd Füzuliyə və digər görkəmli şəxsiyyətlərə həsr olunub. Bu guşədə məşhur söz sərraflarının aforizmləri sıralanıb. Nəsr bölməsində isə Əfsanə Laçının bir neçə hekayəsi, Natiq Rəsulzadənin "Hifz et və bağışla, İlahə Səfərzadənin "Lal", Qafar Cəfərlinin "Gülzəri" əsərləri verilib.

"Nobel mükafatçıları" rubrikasında ədəbiyyatşünas İlham Abbasov görkəmli yazıçı Tomas Elitoun yaradıcılığı barədə araşdırma ilə çıxış edib. Redaksiyanın keçirdiyi müsabiqənin finalçıları barədə isə filologiya üzrə elmlər doktoru İradə Musayevanın təhlili yazısı dərc edilib. Budəfəki "Ustad dərsləri" filologiya üzrə elmlər doktoru Məti Osmanoğlunun "Təbiətlə ədəbiyyat bir araya gəldikdə" yazısı və Herman Hessenin "Sənətkar və psixoanaliz" məqaləsinin tərcüməsi ilə təmsil olunub.

"Yazı masası"nın növbəti qonağı Xalq şairi Nəriman Həsənzadədir. "Dərgidə kitab"da Mənsurə Qaçayqızının bir neçə bədii nümunəsi , "Dərgidə sərgi"də isə Təranə Nurinin 3 rəsm əsəri nümayiş etdirilib.



***Əli NƏCƏFXANLI***
***XQ***

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası Qərar

**№ 3-27/3-7-13/2024**

**Bakı şəhəri** **22 iyul 2024-cü il**

**"Kapitan (komanda verən pilot) tərəfindən obyektiv səbəblərdən öz vəzifələrini yerinə yetirə bilmədikdə, uçuş başa çatdıqdan sonra bu halla bağlı bütün məlumatların təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

"Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 8.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Kapitan (komanda verən pilot) tərəfindən obyektiv səbəblərdən öz vəzifələrini yerinə yetirə bilmədikdə, uçuş başa çatdıqdan sonra bu halla bağlı bütün məlumatların təqdim edilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).
2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri** **Rəşad Nəbiyev**

---

**Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 22 iyul tarixli 3-27/3-7-13/2024 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

**Kapitan (komanda verən pilot) tərəfindən obyektiv səbəblərdən öz vəzifələrini yerinə yetirə bilmədikdə, uçuş başa çatdıqdan sonra bu halla bağlı bütün məlumatların təqdim edilməsi**
**QAYDASI**

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 28.4.2-ci maddəsinə, "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiyanın (bundan sonra – Konvensiya) 6 nömrəli Əlavəsinə uyğun olaraq hazırlanmışdır və mülki aviasiya sahəsində hava gəmisinin kapitanı (komanda verən pilotu) tərəfindən obyektiv səbəblərdən öz vəzifələrini yerinə yetirə bilmədikdə, uçuş başa çatdıqdan sonra bu halla bağlı bütün məlumatların təqdim edilməsi qaydasını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu və Konvensiyanın 6 nömrəli Əlavəsi ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.3. Bu Qayda ilə tənzimlənməyən müddəalar bu Qaydanın 1.1-ci bəndində qeyd edilmiş sənədlərin tələblərinə uyğun həyata keçirilir.

### 2. Hava gəmisinin kapitanı (komanda verən pilotu)

2.1. Hava gəmisinin sahibi və ya onun razılığı ilə istismarçısı hər uçuşdan əvvəl bir pilotu hava gəmisinin idarə edilməsinə və uçuş vaxtı təhlükəsizliyinə nəzarət etməsi məqsədilə hava gəmisinin kapitanını (komanda verən pilotunu) təyin edir.

2.2. Hava gəmisinin kapitanı (komanda verən pilotu) uçuşdan əvvəl hava gəmisinin uçuşa yararlı və hazır olmasına, müvafiq heyətlə komplektləşdirilməsinə və yüklənilməsinə əmin olmalıdır.

2.3. Uçuş zamanı hava gəmisində baş verən və ya baş vermə ehtimalı yaranan bütün nasazlıq və uyğunsuzluqlar barədə hava gəmisinin kapitanına (komanda verən pilotuna) hava gəmisinin digər heyət üzvləri tərəfindən dərhal məruzə edilməlidir.

### 3. Hava gəmisinin kapitanının (komanda verən pilotunun) məlumatlandırma etməli olduğu hallar

3.1. Hava gəmisinin kapitanı (komanda verən pilotu) uçuş zamanı baş verən aşağıdakı hallara dair uçuş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinə (bundan sonra – Agentlik), hava gəmisinin sahibinə, hava gəmisinin sahibi tərəfindən istismar edilmədiyi halda isə istismarçısına məlumat verməlidir:

3.1.1. hava gəmisinin istismarı ilə bağlı baş verən texniki nasazlıq səbəbindən təhlükəsiz uçuş həyata keçirə bilmədikdə;

3.1.2. sərnişinlərin və hava gəmisinin digər heyət üzvlərinin ciddi xəsarət alması və ya ölümü, yaxud hava gəmisinə və ya baqaj və ya yükə ciddi ziyan vurulması ilə nəticələnən hadisə baş verdikdə;

3.1.3. hava şəraiti ilə əlaqədar təhlükəsiz uçuş həyata keçirə bilmədikdə;

3.1.4. fövqəladə hal və ya qanunsuz müdaxilə aktı baş verdikdə;

3.1.5. obyektiv səbəblərdən və ya hava gəmisinin digər heyət üzvlərinin, habelə özünün sağlamlıq vəziyyətinə görə vəzifələrini yerinə yetirə bilmədikdə;

3.1.6. uçuş zamanı hava gəmisinin kifayət qədər yanacağı olmadığı və buna görə də təyinat yerinə təhlükəsiz çata bilməyəcəyi qərara alındıqda;

3.1.7. uçuşun təhlükəsiz yerinə yetirilməsinə mane olan digər hallar baş verdikdə.

3.2. Uçuş zamanı bu Qaydanın 3.1-ci bəndində qeyd edilən hallara dair məlumatlar hava hərəkətini idarəedən quruma ötürülür.

### 4. Məlumatın təqdim edilmə qaydası

4.1. Bu Qaydanın 3.1-ci bəndində qeyd edilən hallar baş verən zaman hava gəmisinin kapitanı (komanda verən pilotu) aşağıdakı tədbirləri görməlidir:

4.1.1. qanunsuz müdaxilə aktı baş verdikdə təxirəsalınmadan, digər hallar baş verdikdə isə 72 (yetmiş iki) saat ərzində Agentliyə, hava gəmisinin sahibinə, hava gəmisinin sahibi tərəfindən istismar edilmədiyi halda isə istismarçısına məlumat (o cümlədən hava gəmisindəki məlum və ya ehtimal olunan nasazlıqlar barədə) verməlidir;

4.1.2. məlumatlandırma yazılı qaydada (hesabat) həyata keçirilməlidir.

4.2. Məlumatlandırma ilə bağlı prosesin təşkili üçün Agentlikdə, hava gəmisinin sahibində və ya istismarçısında əlaqələndirici şəxs təyin edilməli, eləcə də həmin şəxsin elektron poçt ünvanı və digər əlaqə məlumatları digər tərəflərə bildirilməlidir.

4.3. Dövlət və hökumət başçıları, habelə yüksək vəzifəli şəxslərdən ibarət nümayəndə heyətləri üçün nəzərdə tutulmuş uçuşlar ("liter" reyslər) zamanı baş verən müvafiq hallarda məlumatlandırma "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

4.4. Hava gəmisinin kapitanı (komanda verən pilotu) sağlamlıq vəziyyəti ilə əlaqədar hava gəmisini idarə edə və ya uçuşu başa çatdıra bilmədikdə bu Qaydanın 4.1-ci bəndində qeyd edilən tədbirlərin görülməsi səlahiyyəti ikinci pilota ötürülür. Bu barədə ikinci pilot təxirəsalınmadan hava gəmisinin digər heyət üzvlərinə, hava hərəkətini idarə edən quruma, uçuş başa çatdıqdan sonra isə dərhal Agentliyə və hava gəmisinin istismarçısına məlumat verməlidir.

4.5. Hava gəmisinin kapitanı (komanda verən pilotu) təcili qərar və hərəkət tələb edən hallarda təhlükəsizlik ilə bağlı olaraq qaydalardan, əməliyyat prosedurlarından və üsullardan kənara çıxa bilər. Həmin hallarla əlaqədar uçuş başa çatdıqdan sonra hava gəmisinin kapitanı (komanda verən pilotu) bu Qaydanın 4.1-ci bəndində qeyd edilən tədbirləri həyata keçirməlidir.

### 5. Məlumatlardan istifadə qaydası və mühafizə

5.1. Hava gəmisinin kapitanı (komanda verən pilotu) tərəfindən təqdim edilən məlumatlar Agentlik, hava hərəkətini idarə edən qurum, hava gəmisinin sahibi, hava gəmisinin sahibi tərəfindən istismar edilmədiyi halda isə istismarçısı tərəfindən təyinatı üzrə istifadə edilməlidir.

5.2. Bu Qaydanın 5.1-ci bəndində qeyd edilən məlumatların (o cümlədən məxfi və ya konfidensial olduqda) mühafizəsi, saxlanılması və istifadəsi Azərbaycan Respublikasının "Dövlət sirri haqqında", "Fərdi məlumatlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Kommersiya sirri haqqında", "Milli arxiv fondu haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunlarına uyğun olaraq təmin edilir.

# Turan: milli idealdan çağdaş gerçəyə

## Professor Nizaməddin Şəmsizadənin türkçülük məfkurəsinə töhfələri

**"Ey türk oğuz bəyləri, eşidin! Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə, bil ki, türk ulusu, türk yurdu, türk dövləti, türk törəsi pozulmaz. Su kimi axıtdığın qanına, dağlar kimi yığdığın sümüyünə layiq ol! Ey ölməz türk ulusu, özünə dön!"**

**Bilgə Kağan (673-732)**



**Hörmətli oxucu! Bu günlərdə görkəmli ədəbiyyatşünas, professor, Dövlət Mükafatı laureatı Nizaməddin Şəmsizadənin "Turan: tarixi gerçıklik və müasirlik" kitabı ilə tanış olarkən əsərdəki bir çox dəyərli fikir və mülahizələr məni bu qeydləri qələmə almağa sövq etdi. Dərhal qeyd etməyi özümə borc bilirəm ki, bu monumental elmi, publisistik araşdırmalar Turançılıq fəlsəfəsinə sanballı töhfə hesab olunmağa layiqdir.**

Adından da göründüyü kimi, əsərdə, ilk növbədə, Böyük Turançlıq ideallarının mahiyyəti, bu böyü arzu və məramın, ali tarixi missiyanın reallığa çevrilməsi bütün türk xalqları, eləcə də sivil dünya üçün əhəmiyyəti parlaq misallarla izah və şərh edilib. Kitabda çox sayda elmi, bədii və publisistik məxəzlərdən istifadə edilib ki, bu mənada əsər kifayət qədər ensiklopedik və maarifləndirici səciyyə daşıyır.

Qeyd etmək lazımdır ki, kitabın həsr olunduğu mövzu çağdaş dünyanın reallıqları zəminində çox vacib və aktualdır. Bəllidir ki, bu gün planetimiz kəskin siyasi, iqtisadi və hərbi təbəddülatlar burulğanında çalxalanır. Dünya yeni qlobal nizama hamilədir. Belə bir taleyüklü məqamda Turanın siyasi, hərbi, mədəni bir güc mərkəzi olaraq tarix səhnəsinə çıxması və özünü təsdiq etməsi hava-su kimi zəruridir.

Professor Şəmsizadə hesab edir ki, əks təqdirdə türkləri dünyanın siyasi səhnəsindən kənarlaşdırıb, adi bir tamaşaçıya çevirə bilərlər və hətta türkün mövcudluğu təhlükə altına düşər. Türkün növbəti böyük tərəqqi və intibahının qarşısını almaq istəyən qara qüvvələr də var! Amma onlar ilahi ədalətin qarşısında çox cılız təsir bağışlayırlar. Görkəmi dövlət xadimi Turqut Özalın dediyi kimi, axı XXI əsr həqiqətən türk əsridir!

Bəllidir ki, professor Nizaməddin Şəmsizadə strateji düşünən, yüksək fəhmli alimlərdənir. Görünür, elə buna görə də onun bu yöndəki düşüncələrinə bir fəlsəfi müdriklik və nikbinlik xasdır: "Turan birliyi idealdan gerçəkliyə çevrilir. Türkün düşmənləri bunu istəsə də, istəməsə də! Bu, tarixin tələbidir, tarix ən ədalətli hakimdir. Hələ tarixə qalib gələn olmayıb. Bu gün tarixin təkəri türkün xeyrinə işləyir, tarixin hərəkəti türkə şans verib, bu şansı itirmək olmaz".

Bəs tarixən türkün gücü, qüdrəti nədədir? Professor yeni kitabında araşdırmalarının əsas məğzini daşıyan bu suala geniş, əhatəli və məntiqi cavab verib. Belə ki, alim türkün tarixi uğurlarını, ilk növbədə türk mənəviyyatı ilə bağlayır. Yazır ki, dünyanın heç bir milləti türklər qədər zəngin mənəviyyata malik deyillər. Türk mənəviyyatı Vətən əxlaqı və ailə kultu üzərində bərqərar olur. Türklər hər iki amilə görə tərəddüdsüz ölümə gedərlər".

Türkçülüyün atası hesab olunan Ziya Göyalp yazıb ki, türk ədəbiyyatı, mədəniyyəti və mənşəyi, türk fatehliyinin, türk əxlaqının realistik və romantik aynasıdır. Həqiqətən də 5000 illik türk tarixi "əxlaqi sərvətlər sərgisidir". Bəli, bəşəriyyətə türk sivilizasiyası bəxş edən bir xalq zəif ola bilməz. O, qürurludur, möhtəşəmdir, yenilməzdir!




Professor Şəmsizadə tarixi faktlara istinad edərək bu qənaətə gəlir ki, tarixdə türklər işğalçı olmayıblar, fateh olublar. Onlar fəth etdiləri torpaqlara və xalqlara zülm, fəlakət yox, mərhəmət, mədəniyyət, azadlıq və ədalət aparıblar. Bu gün də türk ədaləti, zəkası, mənəviyyat və mədəniyyəti ilə seçilir və sevilir.

Kitab böyük zövqlə, ilhamla qələmə alınıb. Müəllifin Turana və Turançılığa məftunluğu əsərin demək olar ki, hər bir səhifəsində və sətrində hiss olunur. Professor yazır: "Bəlkə də çağdaş türk gəncliyi düşünür ki, Turan imperiyası, Turan dövləti şirin bir xəyaldır. Onlara xatırladıram ki, "Xəyal gerçəkliyə atılan toxumdur" (R.T.Ərdoğan) və bu toxum saf olmasına binaən Allahın izni ilə bu yaxın dövrdə mütləq cücərəcək və böyüyüb bar gətirəcək".

Professor Şəmsizadə, həmçinin vurğulayır ki, biz təkcə arzu və xəyallarımızı deyil, tarixi əməllərimizi və həqiqətlərimizi Turanın təməlinə qoymalıyıq. Yalnız bu zaman Turan dövləti və Turan imperiyası tarixi bir zərurət kimi bərqərar olacaq. Alimə yüksək motivasiya və güc verən məhz bu inamdır: "Mən buna dərin inam bəsləyirəm. Və bu sadə, adi kitabı böyük inamla yazıram".

Kitabda qeyd olunur ki, türkçülüyün mərkəzi XIX əsrdə Macarıstan, XX əsrin 20-30-cu illərində Azərbaycan idi. I Türkoloji qurultay 1926-cı ildə Bakıda keçirildi. Bütün dünyanın türkşünasları, türk dövlətlərinin ədibləri Bakıda türkçülüyün elmi-tarixi durumunu, problemlərini və prioritetlərini müzakirə etdilər. Müasir dövrdə türkçülüyün baş qərargahı Türkiyə – İstanbul şəhəridir. Ankara Türkiyənin, İstanbul türkçülüyün paytaxtıdır. Azərbaycan və onun qəhrəman Prezidenti İlham Əliyevin təşəbbüsü və səyləri ilə ilk toplantısı Naxçıvanda keçirilən "Türk Dövlətləri Təşkilatı" (TDT) türksoydan sonra türkləri unikal şəkildə birləşdirən Turan birliyidir. Onun çox böyük tarixi-ictimai perspektivi var".

Bəli, bu dəyərli kitab professor Nizaməddin Şəmsizadənin doğma türk millətinə məhəbbətindən, Turan idealına sədaqətindən yaranıb. Yeri gəlmişkən, "Ədəbiyyat qəzeti"nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Azər Turanın redaktorluğu ilə nəşr olunan, türkü sevənlər üçün nəzərdə tutulan bu möhtəşəm əsərin hər bir türk ziyalısının stolüstü kitabına çevriləcəyinə zərrə qədər şübhə etmirik.

***Məsaim ABDULLAYEV***
***XQ***

# "Dumanlı Albion"da hava bir az "tutqun"dur

## Britaniyada radikalların mühacirlərə qarşı zorakılığı davam edir

**Sautport şəhərində 3 uşağın qətlindən sonra Böyük Britaniyanı bürüyən mühacir və İslam əleyhinə iğtişaşlar hələ də səngiməyib. İfrat sağçı iğtişaşçılarla polis arasında toqquşmalar bu həftə bir neçə şəhərə yenidən yayılıb və indi Qlazqoda baş verəcəyi gözlənilir. Bunun fonunda bazar ertəsi Böyük Britaniyanın baş naziri Keir Starmer nazirlər və həbsxana rəhbərləri ilə təcili iclas keçirərək, iğtişaşçıların daha tez həbs edilməsi və mühakimə olunması üçün cinayət qanunlarını sərtləşdirəcəyini vəd edib. Bundan əlavə, hakimiyyət təkcə daxili deyil, həm də xarici düşmənləri aşkarlamağa başlayıb. İngilislər internetdə emosional dezinformasiyanın yayılmasının arxasında xarici dövlətlərin olub-olmadığını öyrənirlər.**



Bazar ertəsi axşam Britaniyada iğtişaşlar Plimut, Belfast və Darlinqton şəhərini də əhatə etdi. Miqrantlara qarşı iğtişaşçıların zorakılığının çoxu polisə də qarşı çevrildi, onlara "molotov kokteyli" və kərpic atıldı, polis maşınları yandırıldı. Hətta bundan əvvəl, bazar ertəsi günortadan sonra Britaniyanın Baş naziri Kir Starmer nazirlərin, yüksək vəzifəli məmurların və həbsxana qubernatorlarının iştirakı ilə fövqəladə toplantı keçirdi. "Bu, etiraz deyil, bu, sırf zorakılıqdır... Biz cinayət hüququnu gücləndirəcəyik. Biz cinayət qanununu həm internetdə, həm də real həyatda (cinayətkarlara-red.) tətbiq edəcəyik. Biz məscidlərə və müsəlman icmalarına edilən hücumlara dözməyəcəyik", – hökumət başçısının özü X sosial şəbəkəsində müzakirələrin mahiyyətini qısaca açıqladı. Eyni zamanda, cənab Starmer böhrandan çıxış yollarını müzakirə etmək üçün parlamentin çağırılması və ya polisə kömək üçün ordunun göndərilməsi çağırışlarını rədd etdi.

Lakin son günlər məhbusların sayının kəskin artması ilə əlaqədar hökumət həbsxana imkanlarının genişləndirilməsi planının həyata keçirilməsini sürətləndirmək qərarına gəlib. Bu, uzun müddətdir ki, Böyük Britaniya üçün çox kəskin problemə çevrilib və bu, seçki kampaniyası zamanı fəal müzakirə olunub. Hökumət gələn həftənin əvvəlində yetkinlik yaşına çatmayan cinayətkarlar üçün iki islah müəssisəsində 500-ə yaxın əlavə yer ayırmağa söz veriblər. Milli Polis Rəisləri Şurasının bazar ertəsi açıqladığı rəqəmlərə görə, son bir həftə ərzində ölkə daxilində iğtişaşlarla bağlı 378 nəfər həbs edilib. İğtişaşçılardan bəziləri artıq məhkəmə qarşısına çıxıb. Amma bu xəbərlər iğtişaşları dayandırmır. Hətta internetdə məlumat yayılıb ki, Şotlandiyanın Qlazqo şəhərində yeni etiraz yürüşü hazırlanır.

Bundan əlavə, Baş nazir Starmerin rəhbərlik etdiyi görüşdən sonra "Dauninq Strit" məlumat verdi ki, müvafiq orqanlar zorakı etirazların artmasına kömək edən onlayn dezinformasiyanın yayılmasında xarici ölkələrin rolunu araşdırır. Ancaq hansı ölkənin və ya ölkələrin anti-immiqrant və anti-islam əhval-ruhiyyəsinin qızışdırılmasında iştirak etdiyinə hələlik aydınlıq gətirilmir. Xatırladaq ki, ötən həftə bir sıra Britaniya mediası "Rusiya izi" barədə yazmışdı. Lakin Rusiyanın Londondakı səfirliyi bu cür ittihamları rədd edərək bildirmişdi ki, Moskva suveren dövlətlərin daxili işlərinə qarışmır.

Xatırladaq ki, bir həftədən az bir müddətdə 10-dan çox şəhəri əhatə edən Böyük Britaniyada küçə zorakılığının baş verməsinin tetikleyicisi Sautport şəhərindəki rəqs məktəbində üç qızın öldürülməsi və daha on nəfərin yaralanması olub. Azyaşlı cinayətkarların kimliyinin anonim saxlanılması qaydasına zidd olaraq adı üç gün sonra açıqlanan cinayətkarın Uelsin paytaxtı Kardiffdə yaşayan, ruandalı 17 yaşlı Aksel Rudakubananın olduğu üzə çıxıb. Lakin bu məlumat açıqlanmamışdan əvvəl sosial şəbəkələrdə cinayətkarın sığınacaq axtaran statuslu miqrant və bundan əlavə, radikal müsəlman olması ilə bağlı saxta xəbər fəal şəkildə yayılmağa başlamışdı.

Bu dezinformasiya dərhal Böyük Britaniyada uzun müddətdir davam edən islamafobiyanı qızışdırdı, nəticədə bir sıra şəhərlərdə məscidlərə hücumlar və immiqrantların və qaçqınların məskunlaşdığı otellərin yandırılması ilə nəticələndi.

Qeyd edək ki, İslam London üçün ən aktual məsələdir. Böyük Britaniya hökumətinin 2023-cü il üçün məlumatına görə, müsəlmanlar cinayətlə ən çox üzləşirlər. Qeydə alınan 10 hadisədən 4-ü (44 faiz) müsəlmanlara qarşı yönəlib və ya onlara qarşı dini nifrət zəminində törədilib. Böyük Britaniya Daxili İşlər Nazirliyinin məlumatına görə, 31 mart 2024-cü il tarixinə məhbusların ümumi əhalisinin 12 faizini əcnəbilər təşkil edir - 10 422 nəfər. Eyni zamanda, 6632 əcnəbi vətəndaş məhkum edilib.

Əhalisinin əksəriyyəti müsəlman olan bir neçə ölkə Böyük Britaniyada olan vətəndaşlarına xəbərdarlıq edib. Sky News-un məlumatına görə, İndoneziya, Malayziya və Nigeriya iğtişaşlardan uzaq olmaq üçün tövsiyələr verib. Bundan əlavə, Qazaxıstanın Londondakı səfirliyi, eləcə də BƏƏ və Avstraliya da vətəndaşlarını İslam əleyhinə etirazlar baş verən şəhərlərə getməməyə çağırıb.

***S.ELAY***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 167 (30571) 8 avqust 2024-cü il, cümə axşamı

# “Paris-2024”: Taekvondoçumuz milli komandamıza 4-cü medalı qazandırdı





**Fransanın paytaxtında dördilliyin mötəbər idman yarışlarında Azərbaycan təmsilçilərinin çıxışları davam edir.**

Paris Yay Olimpiya Oyunlarında uğurla çıxış edən Azərbaycan komandası daha bir medal qazanıb. Dünən taekvondo üzrə yeganə təmsilçimiz Qaşım Maqomedov (58 kq) Oyunlarda uğurla çıxış edərək gümüş medala layiq görülüb.

Avropa çempionatlarının qızıl və bürünc mükafatçısı əvvəlcə Cek Uolleyli (İrlandiya), daha sonra ispaniyalı Adrian Visenteni 2:0 hesabı ilə məğlub edərək “Paris-2024”ün finalına yüksəlib. O, finalda cənubi koreyalı Park Tae-Junla mübarizədə uduzduğu üçün 2-ci yerlə kifayətlənib.

Qeyd edək ki, olimpiadalar tarixində 2-ci dəfə Azərbaycan idmançısı taekvondo üzrə finala vəsiqə qazanıb. Buna nail olan ilk idmançı Radik İsayev olub. O, Rio-2016-da +80 kiloqram çəkidə qızıl medal alıb. Onun komanda yoldaşları Milad Beiqi Harçeqani 80 kiloqram, Patimat Abakarova 49 kiloqram çəkidə həmin yarışda bürünc medallara layiq görülüblər.

Dünən yunan-Roma güləşi üzrə 3 çəkidə medal qarşılaşmaları olub. Millimizin üzvü Həsrət Cəfərov Olimpiadaya 1/8 finaldan başlayıb. Dünya çempionatlarının gümüş və bürünc mükafatçısı Mohamed Elsayedi (Misir) ilə görüşdə tam üstünlüklə (9:0) qələbə qazanaraq 1/4 finala yüksəlib. O, ikinci qarşılaşmasında moldovalı Valentin Petiçlə münasibətinə aydınlıq gətirib. Cəfərov bu dueldən də qalib ayrılaraq yarımfinala çıxıb. Pəhləvanımız finala gedən yolda Ukraynanı təmsil edən həmyerlimiz Pərviz Nəsibovla qüvvəsini sınayıb. Rəqibə məğlub olan idmançımız bu gün bürünc medal uğrunda mübarizə aparacaq.

Yarışda mübarizə aparan 2 qat dünya çempionu Rafiq Hüseynov təəssüf ki, erkən mərhələdə mübarizəni dayandırıb. Tokio-2020-nin bürünc mükafatçısı 1/8 finalda macarıstanlı David Loşontsiyə məğlub olub.



Təmsilçimiz Sənan Süleymanov isə mükafat uğrunda mübarizə aparıb. Dünya çempionatlarının ikiqat gümüş mükafatçısı bürünc medal uğrunda Akjol Mahmudovla (Qırğızıstan) qarşılaşıb. Millimizin üzvü uduzaraq, medalı əldən verib.

Bu gün sərbəst güləş yarışları start götürəcək. Təmsilçilərimizdən 57 kiloqram çəkidə çıxış edən Əliabbas Rzazadə Özbəkistan təmsilçisi Qulomjon Abdullayevlə qarşılaşacaq. 86 kiloqram çəkidə mübarizə aparacaq Osman Nurmaqomedov isə monqolustanlı Baasanyarqal Byambasuren ilə üz-üzə gələcək. Hər iki güləşçimiz 1/8 finaldan yarışa qatılacaq.

Qeyd edək ki, sərbəst güləş millimiz Olimpiadaya 6 idmançı ilə yollanıb.

Xatırladaq ki, hələlik komandamızın aktivində 4 medal var. Cüdoçularımız Hidayət Heydərov (73 kq) və Zelim Kotsoyev (100 kq) Olimpiya çempionu olublar. Taekvondoçumuz Qaşım Maqomedov (58 kq) gümüş medal qazanıb, boksçu Alfonso Dominqes (92 kq) isə finala yüksəlməklə, ən azı, gümüş medalı təmin edib.

## Alfonso, qızılı əldən vermə!

**Parisdə keçirilən Yay Olimpiya Oyunlarında finala yüksələn Azərbaycan boksçusu Alfonso Dominqes şəxsi “İnstaqram” hesabında yazıb:**



– Mən burada ölkəmi, ailəmi, övladlarımı, komanda yoldaşlarımı və bütün Azərbaycan xalqını təmsil edirəm.

92 kq çəki dərəcəsində mübarizə aparan idmançı turnirin həlledici qarşılaşmasına vəsiqə qazandığını xatırladaraq deyib:

–Allaha çox şükürlər olsun ki, mənə bu anları yaşamağa imkan verdi. Azərbaycan xalqına təşəkkürümü bildirirəm, məni öz oğulları kimi qarşıladılar və olimpiadada çıxış etməyə şans yaratdılar.

Xatırladaq ki, Alfonso Dominqes qızıl medal uğrunda Özbəkistan təmsilçisi Lazizbek Mullojonovla döyüşəcək. Görüş avqustun 10-da Bakı vaxtı ilə saat 00:34-də başlayacaq.

Alfonso, qızılı əldən vermə!

## Cüdoçularımız Avropa reytinqi zirvəsində

**Olimpiya çempionları – Dünya reytinqinin lideri Hidayət Heydərov (73 kq) və öz çəkisinin 1-cisi Zelim Kotsoyev (100 kq) Avropa cüdoçularının sıralamasında da liderliklərini möhkəmləndiriblər.**



Avropa reytinqində 7 çəki üzrə cəmi 4 ölkə təmsilçisi yer alıb. Azərbaycanla yanaşı, Gürcüstan və Fransanın da hərəyə 2 idmançısı zirvədədir. Gürcülər Tato Qriqalaşvili (81 kq) və Laşa Bekauri (90 kq), fransalılar cüdo əfsanəsi Teddi Riner (+100 kq) və Luka Mheidze (60 kq) ilk yerləri tuturlar.

Moldovalı Denis Vieru (66 kq) da öz çəkisində Avropa reytinqinin ən yüksək pilləsində qərarlaşıb.

## Qadın güləşçi finalda cəzalandırıldı

**Paris Olimpiadasının qadın güləşi üzrə finalçısı, hindistanlı Vineş Phoqat (50 kq) diskvalifikasiya edilib.**



Hindistanın olimpiya komandasının rəsmi “X” hesabında məlumatına görə, idmançı 100 qram artıq çəkiyə görə cəzalandırılıb. Bununla da, onun finaldakı rəqibi, ABŞ güləşçisi Sara Hildebrandta qızıl medal veriləcək. Bu çəkidə gümüş mükafat olmayacaq.

Xatırladaq ki, 50 kq çəkidə Azərbaycan təmsilçisi Mariya Stadnik də çıxış edib. 1/4 final mərhələsində məğlub olan titullu idmançı yarışı medalsız başa vurub.



## İlk 5 qat olimpiya çempionu

**Kubalı yunan-Roma güləşçisi Mixain Lopez Nunes ardıcıl 5 olimpiadada qızıl medal qazanan ilk güləşçi kimi tarixə düşüb.**

130 kiloqram çəki dərəcəsində çıxış edən 42 yaşlı əfsanəvi güləşçi 5-ci Olimpiya çempionluğunu Paris Olimpiadasında çilili Yasmani Akosta Fernandesi 6:0 hesabı ilə məğlub etməklə əldə edib.

O, daha əvvəl “Pekin-2008”, “London-2012”, “Rio-2016” və “Tokio-2020”-də fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Fransa paytaxtında oğurluq artıb

**Paris Olimpiadası zamanı Cənubi Sudanın idman nazirinin müavini oğurluqla üzləşib. İçərisində 35 min dollar, sənədlər və zinət əşyaları olan çanta oğurlanıb.**



Fransa polisi içərisində sənədlərin olduğu çantanı tapsa da, zinət əşyaları və pul aşkarlanmayıb.

Bundan əvvəl Paris Yay Olimpiya Oyunlarının iştirakçılarına qarşı silsilə oğurluq halları baş verib. Yapon reqbiçinin nikah üzüyü və 3 min avrosu itib. Avstraliya komandasının məşqçisinin bank kartı oğurlanıb və ondan 900 avro çıxarılıb. İndoneziyanın isə badminton üzrə Olimpiya komandasının əməkdaşı Arman Darmaciyə məxsus çanta avtomobildən oğurlanıb. Cinayətkarlar pul, kredit kartı və pasportu götürüblər.

Hava

## Abşeronda – külək, Aranda – isti, dağlarda – yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 8-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək, axşam mülayimləşəcək. Gecə 21-26°, gündüz 30-34° isti olacaq.**

Atmosfer təzyiqi 754 mm civə sütunundan 758 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-75, gündüz 55-65 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 31-36°, dağlarda gecə 12-16°, gündüz 18-23° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

*Səhifəni hazırladılar:*
*Səbuhi MƏMMƏDOV,*
*Leyla QURBANOVA*
*XQ*

**“İpək Yolu Sığorta” ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir. Cəmiyyətin yeni ünvanı– Bakı şəhəri, AZ 1044, Xəzər rayonu, Binə qəsəbəsi, Heydər Əliyev prospekti 573, “ASG Business Aviation” MMC-nin inzibatı binası, 4-cü mərtəbə.**

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi keçmiş iş yoldaşları, tanınmış ədəbiyyatşünas – publisist

**İLHAM ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3550
SİFARİŞ 1764
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00